# DTX ölkədə ağır cinayətlər planlaşdıran qrupu ifşa etdi

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№47 (3338) 17 Dekabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymətı: 60 qəpik

**ANA XƏBƏR**



## Nazir generalı vəzifəsində uzaqlaşdırdı

# Suriyada qalib kimdir?

Xalq irtica rejimindən xilas oldu; bəs, bu dəyişiklikdən qazanclı çıxan hansı ölkələr olacaq?



## Suriyadan sonra İran rejimi də çökür...

9

**GÜNÜN NƏBZİ**

**Baxış**

## Özünü axtaran adam



Rasim Qaracanın "Zülmətdə alatoran" adlı avtobioqrafik romanı haqda

3

**Araşdırma**

## İllər sonra ortaya çıxan şok gerçəklər

İlham Rəhimovla Rəbiyyət Aslanovanın evliliyi niyə cəmi 6 ay sürdü?

6

**Aktual**

## ADP Başər Əsədin mühakimə olunmasına çağırış etdi...

Partiya Prezident İlham Əliyevə də müraciət etdi...

4

**Aktual**

## Əsəd Suriyadan necə qaçdığını açıqladı

O, sadəcə, hərbi əməliyyatları izləmək və rus müttəfiqlərilə koordinasiya aparmaq üçün Latakiyaya getdiyini iddia edir...

4

**Şikayət**

## Bir qrup səhmdara qarşı dələduzluq

"Bakı Tikinti Quraşdırma" ASC-nin səhmdarları rəhbərliyin qanunsuz əməllərindən şikayətçidir

11

**Fakt**

## "İlk növbədə cəmiyyətdəki sosial problemləri həll etməliyik"



Həkim-terapevt: "Yeniyetmə və gənclərimizi narkomaniyadan qorumaq üçün işsizliyi, yoxsulluğu aradan qaldırmaq lazımdır"

10

**Fakt**

## Narkomaniyadan xilas üçün 7 əsas yanaşma!



Firəngiz Quliyeva: "İlk mərhələdə sağlam həyat tərzinin üstünlükləri izah edilməlidir..."

10

**Fakt**

## Daha 63,9 milyon manat ölkəyə qaytarıldı

Kənd təsərrüfatı məhsullarının ixracından əldə olunan pul vəsaitlərinin ölkəyə qaytarılması istiqamətində tədbirlər davam etdirilir. Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatında deyilir. Məlumata görə, xarici ölkələrə müxtəlif növ məhsulları ixrac edən bəzi sahibkarlıq subyektlərinin müvafiq valyutada olan pul vəsaitlərini Azərbaycan Respublikasına qaytarmamaları ilə bağlı Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlar əsasında prokurorluq orqanlarında cinayət işləri başlanaraq ibtidai istintaq aparılır.

2

**Fakt**

## Müdafiə Nazirliyinin sabiq idarə rəisinin cəzası artırıldı

Müdafiə Nazirliyinin Satınalma və Təchizat İdarəsinin sabiq idarə rəisi Məlikməmməd Qurbanov barəsində olan hökmdən verilən apellyasiya protesti və apellyasiya şikayətləri üzrə məhkəmə baxışa çatıb. Dünən Bakı Apellyasiya Məhkəməsində hakim Mehriban Qarayevanın sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, Məlikməmməd Qurbanovun cəzası 2 il 6 ay çoxaldılıb. Məlikməmməd Qurbanovun üzərində qəti olaraq 6 il 6 ay cəza saxlanılıb.

2

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№47 (3338) 17 Dekabr / 2024-cü il   Həftədə 1 dəfə çıxır   Qiymәti: 60 qәpik

# Rusiya narkomafiyasına böyük zərbə

## Narkotik ticarətindən əldə olunan milyardlarla vəsait müharibə üçün silah alınmasına xərclənirmiş...




**Britaniya Milli Cinayət Agentliyi (NCA) genişmiqyaslı beynəlxalq araşdırmalarla bütün dünyada fəaliyyət göstərən Rusiya cinayət şəbəkəsinin zərərsizləşdirildiyini açıqlayıb. Araşdırmaya görə, şəbəkənin içində iki qurum olub: "Smart" və "TGR Group".**

Stopnarkotik.az xəbər verir ki, cinayətkar şəbəkə Britaniya, Yaxın Şərq və Cənubi Amerika, eləcə də Rusiyanın özündə kriminal qrupların pullarının yuyulması ilə məşğul olub.

Şəbəkənin fəaliyyət sahəsində narkotikin qanunsuz dövriyyəsi, dələduzluqla pul qoparmaq üçün proqramların hazırlanması və casusluq da var.

Məlumata görə, araşdırmalar nəticəsində müxtəlif ölkələrdə 84 nəfər həbs edilib. Rusiya şəbəkəsinin zərərsizləşdirilməsi əməliyyatı beynəlxalq kəşfiyyat xidmətlərinin sənədlərində "Operation Destabilise" kimi qeyd olunub.

"Biz ilk dəfə Rusiya elitası, gizli zəngin kibercinayətkarlar və Böyük Britaniyanın küçələrində fəaliyyət göstərən narkotik dəstələri arasında əlaqələri aşkara çıxara bildik. Onları birləşdirən bağ isə "Smart" və "TGR"-nin birgə qüvvələri indiyədək görünməz olub", - deyə NCA Xüsusi Əməliyyatlar üzrə Baş Direktor Rob Cons bildirib.

"Rusiya elitası "TGR Group" vasitəsilə sanksiyalardan yan keçərək, özlərini və Kremli varlandırmaq üçün rəqəmsal aktivlərdən, xüsusən də ABŞ dolları ilə dəstəklənən stabilkoinlərdən istifadə edib", deyə ABŞ Maliyyə katibinin terrorizm və maliyyə kəşfiyyatı üzrə müavini vəzifəsini icra edən Bredli Smit əlavə edib. Müstəntiqlər ilkin nəticəni 2021-ci ildə əldə ediblər. Belə ki, polis narkotik satışından nağd pul daşıyan kuryer Fəvad Səyidi saxlayıb. Onun avtomobilində 250 min funt olub. Daha sonra o, 15,6 milyon funt-sterlinq narkotik pulunun daşınmasını koordinasiya etdiyini etiraf edib və dörd ildən çox müddətə həbs edilib.

NCA işçiləri təhqiqatı dərinləşdirdikdə F.Səyidinin Moskvada yerləşən "Smart" kriptovalyuta mübadiləsi xidmətinin rəhbəri Yekaterina Jdanova üçün işlədiyini öyrəniblər. Daha sonra NCA bütün ölkə üzrə eyni iş modelini - narkotik alverçiləri və kriptovalyutalar arasında əlaqəni üzə çıxarıb.




Narkotik satışından qazanc əldə edən Sayedi kimi kuryerlər narkotik alverçilərindən nağd pul yığaraq, onların bir-birinə güvənməsinə və tez köçürmələrə şərait yaradıb.

Kuryerə nağd pul köçürməsi təsdiqləndikdən sonra "Smart" və "TGR" tərəfindən təmin edilən kriptovalyuta alverçilərin gizli onlayn hesablarına göndərilib. Bu kriptovalyuta öz növbəsində Cənubi Amerika kartellərindən kokain almaq üçün istifadə edilib.

Ölkənin hüquq-mühafizə orqanları hesab edir ki, Böyük Britaniyadakı digər narkokuryer şəbəkəsini rusiyalı neftçi oğlu Semyon Kuksov idarə edirmiş. Cəmi 10 həftəyə Semyon və işbirlikçiləri virtual valyuta ilə narkotik satışından 12 milyon funt sterlinqdən çox pul qazanıblar. Bu səbəbdən, o, təxminən altı il həbs cəzası alıb.

Bu günə qədər NCA narkotik satışından gələn 700 milyon funt sterlinqin 20 milyonunu müsadirə edib. İndiyədək həbs və ittihamların böyük əksəriyyəti Sayedi və Kuksov kimi kuryerlərə aid olub.

NCA-nın Xüsusi Əməliyyatlar Departamentinin baş direktoru Rob Cons bildirib ki, bu əməliyyat əvvəllər beynəlxalq hüquq-mühafizə orqanlarına məlum olmayan milyardlarla dollarlıq pulların yuyulması sxemlərini üzə çıxarıb.

**Rusiyada dərin köklər**

Britaniya hakimiyyəti hesab edir ki, "Smart" və "TGR Group" Rusiya maliyyə sektoru ilə güclü əlaqələrə malikdir. Əksər hallarda Rusiyaya gələn və gedən pul vəsaitləri Yaxın Şərqdən keçərək göndərilirib və ümumən şəbəkə 30-dan çox ölkədə fəaliyyət göstəririb. Həmçinin, "Smart" və "TGR" mütəmadi olaraq 2022-ci ildə Böyük Britaniya və ABŞ-ın sanksiyasına məruz qalan kriptovalyuta mübadilə xidməti "Garantex" ilə bağlı olub. "Garantex" öz növbəsində Rusiyanın Ukraynada istifadə etdiyi silah komponentlərinə görə şirkətlərə ödənişlərlə bağlı olub.

ABŞ Xəzinədarlığı iddia edir ki, Yekaterina Jdanova və "TGR" şəbəkəsinin üzvləri Böyük Britaniyaya 2 milyon funt sterlinq köçürmək üçün kriptovalyutadan istifadə edib.

Müstəntiqlər iddia edirlər ki, 2022-ci ildə Rusiya casusluq üçün ödənən vəsaitləri köçürmək üçün "Smart" və "TGR" dən istifadə edib.

Sonra 2023-cü ildə eyni firmalar RT-yə nağd pul köçürməsinə kömək edib. Bundan əlavə, NCA-nın məlumatına görə, Rusiya şəbəkəsi rusiyalı müştərilərə Rusiya pullarının Böyük Britaniyaya girişi ilə bağlı sanksiyalardan və məhdudiyyətlərdən qeyri-qanuni şəkildə yan keçməyə kömək edib.

**Hazırladı: İ.SABİRQIZI**

*Əyləncə səhifəsi*

## Milyonçudan ölümündən əvvəl səxavətli jest

**Yerli sakinlərdən birinin sözlərinə görə, bu, "gözəl ideya və böyük mirasdır". Turrett (Fransa) kommunasının ərazisində qeyri-adi əhvalat baş verib: yerli sakin Marselen Artur Şe öz şəhərinə 2,5 milyon avroluq miras qoyub.**



Lent.az-ın xarici mediaya istinadla məlumatına görə, vəsait yaşlı insanlar üçün sosial mərkəzin yaradılması və qeyri-kommersiya layihələrinin dəstəklənməsi üçün istifadə olunacaq.

Ömrünün çox hissəsini Turrettdə keçirən Marselen Şe 95 yaşında vəfat edib. O, vəsiyyətində 2026-cı ilə qədər istifadəyə verilməsi planlaşdırılan on çarpayılıq qocalar evinin tikintisinə göstəriş verib.

Kommunanın meri Kamil Buj bu misilsiz hədiyyəyə görə dərin minnətdarlığını bildirib.

"Bu layihə kommersiya mənfəəti olmayan müstəsna sosial təşəbbüs olacaq", - o deyib.

Yerli sakinlər bu xəbəri səmimi minnətdarlıq hissi ilə qarşılayıblar.

"Bu, məni təəccübləndirmədi, çünki o, həmişə insanlara kömək edirdi", - Marselenin qonşusu Mark urğulayıb. Yaşlılara qulluq edən Enn əlavə edib: "Bu, gözəl ideya və böyük mirasdır."

Lacivərd sahilindəki kiçik bir şəhər olan Turrett indi əhəmiyyətli bir sosial layihəni həyata keçirməyə hazırlaşır. Marselin Şenin xeyirxahlığı sayəsində bir çox yaşlı sakinlər yeni ev və layiqli dəstək tapa biləcəklər.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov

Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.




# MEDİA 16-22 dekabr tarixini "Media Savadlılığı həftəsi" elan edib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) növbəti həftəni - 16-22 dekabr tarixini "Media Savadlılığı həftəsi" elan edib. Hurriyyet.az xəbər verir ki, məqsəd Media Savadlılığı platforması çərçivəsində xüsusilə də gənc jurnalistlərin maarifləndirilməsinə, onların peşəkar media nümayəndəsi kimi yetişməsinə dəstəK olmaqdadır.

Qeyd edək ki, həftə ərzində müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulur.

MEDİA-nın bu istiqamətdə hazırladığı maarifləndirici bannerləri oxucularımıza təqdim edirik:










# DTX ölkədə ağır cinayətlər planlaşdıran qrupu ifşa etdi

## Təxribat və girovgötürmə cinayətləri həyata keçirməyə hazırlaşan ekstremist qrupun üzvləri ələ keçirildi

**Təxribat və girov götürmə cinayətlərini planlaşdıran ekstremist qruplaşma ifşa edilib. Bu barədə Dövlət Təhlükəsizliyi Xidmətindən məlumat verilib.**

Bildirilib ki, həyata keçirilmiş kompleks əməliyyat-istintaq tədbirləri ilə Azərbaycan Respublikasının vətəndaşları - 1984-cü il təvəllüdlü Şahmurov Fəxrəddin Hacı oğlu, 1960-cı il təvəllüdlü Muradov Calal Murac oğlu, 1998-ci il təvəllüdlü Babayev Kamran Kamil oğlu və digərlərinin Azərbaycan Respublikasının konstitusiya quruluşunun əsasları əleyhinə ağır və xüsusilə ağır cinayət əməlləri törətmək məqsədilə sövdələşib cinayətkar birlik yaratmaları, Respublika ərazisində gizli görüşlər və sosial şəbəkələrdə müxtəlif qapalı qruplar təşkil edərək dövlət təsisatlarına qarşı təxribat əməlləri törətmələrinə hazırlıq görmələri təsbit edilib.


Fəxrəddin Şahmurov | Calal Muradov | Kamran Babayev

Müəyyənləşdirilib ki, xarici ölkə vətəndaşının da iştirakı ilə təşkil olunmuş gizli toplantıda cinayətkar birliyin bayrağının hazırlandığı bəyan edilərək, birliyin məqsədləri naminə törədiləcək cinayətlərin plan və şərtlərinin işlənib hazırlanmasına rəhbərlik etmək üçün Fəxrəddin Şahmurova təqdim edilib.

Fəxrəddin Şahmurov cinayət qruplaşmasının digər üzvləri ilə birlikdə mütəşəkkil dəstə halında ölkənin müdafiə qabiliyyətinə və iqtisadi təhlükəsizliyinə ziyan vurmaq məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədində yerləşən gömrük postunu ələ keçirmək, cinayətkar birliyin tələblərini irəli sürmək üçün orada xidmət aparan əməkdaşları və digər şəxsləri girov götürmək barədə təxribat planı hazırlamış, görülmüş tədbirlərlə mütəşəkkil dəstənin qanunsuz əməllərinin qarşısı alınıb.

Fəxrəddin Şahmurov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28.282.2-ci (mütəşəkkil dəstə tərəfindən təxribata hazırlıq), 28.215.3 (adamları girov götürməyə hazırlıq), 218.1 (cinayət birlik (təşkilat) yaratma) və 281.2 (dövlət əleyhinə çağırışlar məzmunlu materiallar yayma), Calal Muradov və Kamran Babayev isə Cinayət Məcəlləsinin 281.2-ci və digər maddələri ilə cinayət məsuliyyətinə cəlb edilərək həbs olunmuş, həmçinin digər şəxslər istintaqa cəlb edilib.

Hazırda cinayət işi üzrə kompleks araşdırmalar davam etdirilir.

**KƏNAN**

# Daha 63,9 milyon manat ölkəyə qaytarıldı




**Kənd təsərrüfatı məhsullarının ixracından əldə olunan pul vəsaitlərinin ölkəyə qaytarılması istiqamətində tədbirlər davam etdirilir.**

Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatında deyilir.

Məlumata görə, xarici ölkələrə müxtəlif növ məhsulları ixrac edən bəzi sahibkarlıq subyektlərinin müvafiq valyutada olan pul vəsaitlərini Azərbaycan Respublikasına qaytarmamaları ilə bağlı Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlar əsasında prokurorluq orqanlarında cinayət işləri başlanaraq ibtidai istintaq aparılır.

Hazırkı vaxtadək Şəmkir, Astara, İsmayıllı, Ağsu və Zəngilan rayon prokurorluqları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində bəzi sahibkarlıq subyektlərinin xarici ölkələrə ixrac edilmiş kənd təsərrüfatı məhsullarının alqı-satqısından əldə etdikləri pul vəsaitlərindən 37,6 milyon ABŞ dollarından artıq (müvafiq dövrün məzənnəsi ilə 63,9 milyon manatdan artıq) hissəsinin ölkəmizdə müvəkkil edilmiş bank hesabına qaytarılması təmin edilib.

Prokurorluq orqanları tərəfindən bu kateqoriya araşdırmalara dair, yeni müxtəlif şəxslər tərəfindən mal və məhsulların ixracı nəticəsində əldə edilən pul vəsaitlərinin ölkəmizdə müvəkkil bank hesablarına qaytarılması istiqamətində zəruri prosessual tədbirlərin icrası davam etdirilir.

# Müdafiə Nazirliyinin sabiq idarə rəisinin cəzası artırıldı

**Müdafiə Nazirliyinin Satınalma və Təchizat İdarəsinin sabiq idarə rəisi Məlikməmməd Qurbanov barəsində olan hökmdən verilən apellyasiya protesti və apellyasiya şikayətləri üzrə məhkəmə başa çatıb.**

Dünən Bakı Apellyasiya Məhkəməsində hakim Mehriban Qarayevanın sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub.

Qərara əsasən, Məlikməmməd Qurbanovun cəzası 2 il 6 ay çoxaldılıb. Məlikməmməd Qurbanovun üzərində qəti olaraq 6 il 6 ay cəza saxlanılıb.

Qeyd edək ki, Məlikməmməd Qurbanov 2015-2019-cu illərdə Müdafiə Nazirliyinin Satınalmalar və Təchizat İdarəsinin rəisi olub. 2019-cu ildə ehtiyata buraxılıb.

2021-ci ildə Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılıb. Ona Cinayət Məcəlləsinin 179.4-cü maddəsi ilə ittiham irəli sürülüb.

Bakı Hərbi Məhkəməsinin hökmü ilə Məlikməmməd Qurbanov 4 il müddətinə azadlıqdan məhrum olunub.



# Nazir generalı vəzifəsində uzaqlaşdırdı

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Xüsusi Riskli Xilasetmə Xidmətinin rəis müavini general-mayor Raul Zeynalov vəzifəsindən azad edilib.**

Bununla bağlı fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov əmr imzalayıb.

Qeyd edək ki, R.Zeynalova 2021-ci il dekabrın 22-də 39 yaşında general-mayor ali hərbi rütbəsi verilib.

Xatırladaq ki, Raul Zeynalov FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin rəis müavini vəzifəsinə 23 dekabr 2021-ci ildə təyin edilib. Ondan əvvəl FHN-in Bakı Regional Mərkəzi rəisinin birinci müavini vəzifəsində işləyib.

# Özünü axtaran adam

Bir gün Diasfen günün günorta çağı əlində çıraq bazarda qələbəliyin içində gəzirmiş. Onu görənlər soruşublar ki, nə axtarırsan? Deyib, "adam axtarıram".



Sərdar CƏLALOĞLU

*(Əvvəli ötən sayımızda)*

İnsanda tanınmaq hərisliyi var. Xüsusən yaradıcı adam üçün tanınmaq, populyarlaşmaq hava-su kimidir. Gənclərdə isə tanınmaq hərisliyi hətta ifrata varır. Ədəbiyyatda tanınmanın əsas üsulu çap olunmaqdır. Çap texniki və biznes məsələsidir, yaradıcılığa bilavasitə aidiyyəti yoxdur. Amma yaradıcı şəxs çap olunmadan tanınmır, tanınmadıqca yeni əsərlər ortaya çıxara bilmir.

Rasim Qaracanı idarəetmədə varisliyin ədəbiyyata keçməsi narahat edir. Atası tanınan ədəbiyyatçının balası istedadlı olmasa da, tanınan olur. Necə ki, keçmiş kommunist məmurların balaları müstəqil Azərbaycanın məmurlarına çevrilir. Qaracanı ədəbiyyatda tanınmanın irsi olması çox narahat edir.

Nə üçün yenidənqurma bizim cəmiyyətə az şey verdi?! Hər bir fərd özünü yenidən qurmadan heç bir xalq yenidənqurmadan bəhrələnə bilməz. Bizdə də mənəvi yenidənqurma fərdi səviyyədə geniş intişar tapmadığından, yenidənqurmadan bəhrələnmək, yeni azad cəmiyyət yaratmağı bacarmaq bir tərəfə, yenidənqurmanın düşmənlərinə çevrildik. Bunu da M.S.Qorbaçovun simasında həyata keçirməyə cəhd etdik və edirik. Yenidənqurmadan az adam və az sayda xalq faydalana bildi. İndi onlar bizimlə müqayisədə çox-cox azad və xoşbəxtdirlər. Onların gənc yazarları giley ədəbiyyatı yaratmır, onları bəşəri mövzular özünə cəb edir. Qaraca və onun dostlarının enerjilərinin bir qismi məhz giley ədəbiyyatına israf olundu.

Muharibə həm çoxlu mövzu, həm də çoxlu itki verir. Biz onun mövzularından daha çox, itkilərini alırıq. Azərbaycan Müstəqillik Hərəkatının və Vətən Müharibəsi qələbəsinin hələ də layiqli tərənnümü buna görə yaranmayıb və yaranma növbəsi gözləyir. Bu iki məsələ ədəbiyyatın qapısını döysə də, hələ ki, onu açan olmayıb, o cümlədən alatorançılar da. Zatən adı üstündə, alatoran hələ aydınlıq demək deyil. Alotoran qaranlıqdan aydınlığa və əksinə aydınlıqdan qaranlığa keçiddir. Yəni zülmətdən çıxmaq, aydınlığa çatmamaqdır.

İnsan nə uçun yaşayır? Kimlər ki, özü uçun yasayır, onların həyatı onların ölümü ilə bitir. Kimlər ki, başqaları üçün və ya ideya naminə yaşayır, onlar öldükdən sonra da həyatları davam edir. Yəni insan nə qədər özünü başqalarına həsr edir, bir o qədər uzunömürlü olur.

Qaraca yazır ki, "biz təzəcə yaşamağa başlayanda isə, ömür, əlbəttə, sona yetir". Düzdür, ömür sona yetir, amma xalq uzun yaşamağa başlayanda həyat davam edir, yəni bu dəfə başqalarında ömür sürməyə başlayırsan. Ona görə, ədəbiyyatçıların çox sevdiyi "ölməz sənətkar" ifadəsi meydana çıxıb.

Qohumluq əlaqələri bir insan üçün nə deməkdir? İki cür qohumluq var: cismani və mənəvi qohumluq. İnsan mənəvi qohumluqla daha nəhəng, daha uzunömürlü və daha böyük olur. Yaradıcı adamlar nə qədər böyük tarixi səxsiyyətlərlə mənəvi qohum olur, o, bir o qədər oz dövrünün böyük şəxsiyyətinə çevrilir. Biz daşıdığımız ideyalar qədər böyükük.

Bəs atamız və anamız bizim mənəvi inkişafımızda nə kimi rol oynayır?! Analar gündüz, atalar qaranlıq kimidir. Biz uşaqlıqdan anamızı onun bizə verdiyi südün ağlığında, atamızı onun bizə verdiyi sərt tərbiyənin qaranlığında - sərtliyində, vahiməsində, qeyri-müəyyənliyində görürük. Uşaqlar çox vaxt buna görə anlarına sığınırlar. Ata soyuqluq, ana istlikdir. Ana qucağının hərarəti ata sərtliyinin buzlarını əridərək, ailə yaradır. Ana "gedər gələr", ata "gedər gəlməz" yol kimidir. Birinə çatmaq sakitlik, digərinə çatmaq qəhrəmanlıq tələb edir. Biri bizdən quzu, digəri qoç olmağı tələb edir. Seçim isə bizim həyat fəlsəfimizlə, istedad və qabiliyyətimizlə bağlı olur.

Bəs atamız və anamız bizim mənəvi inkişafımızda nə kimi rol oynayır?! Analar gündüz, atalar qaranlıq kimidir. Biz uşaqlıqdan anamızı onun bizə verdiyi südün ağlığında, atamızı onun bizə verdiyi sərt tərbiyənin qaranlığında - sərtliyində, vahiməsində, qeyri-müəyyənliyində görürük. Uşaqlar çox vaxt buna görə anlarına sığınırlar. Ata soyuqluq, ana istlikdir. Ana qucağının hərarəti ata sərtliyinin buzlarını əridərək, ailə yaradır. Ana "gedər gələr", ata "gedər gəlməz" yol kimidir. Birinə çatmaq sakitlik, digərinə çatmaq qəhrəmanlıq tələb edir. Biri bizdən quzu, digəri qoç olmağı tələb edir. Seçim isə bizim həyat fəlsəfimizlə, istedad və qabiliyyətimizlə bağlı olur.

Hər bir ovlad valideynlərdə özünəməxsus iz buraxır. Bəzən bu izlər o qədər dərin olur ki, daima qan verir. Bəzən o qədər səthi olur ki, çox asanlıqla silinir və yaddaşın alt qatlarına keçir. Bu da bizim kimi daha çox xatırlamağımıza səbəb olur. Bizdə yalnız valideynlərimiz yox, həm də övladlarımız iz buraxır. Bu izlərin bəzisi sevincdən, bəziləri kədərdən yaranır. Allah ona görə insana iki göz verib ki, biri ilə ağlasın, biri ilə gulsun.

Qaracanın valdeynləri və övladları ilə bağlı düşüncələri də məhz bu məsələrdən xəbər verir. Belə bir fikir var: valideynlər öldükdən sonra ölüm novbəsi ovladlara çatır. Yəni yalnız həyatda yox, ölümdə də varislik var.

Atalar ömürlərində bir dəfə övladlarına aydınlıq kimi görünür, o da onları ağ kəfənə bürüyüb, məzara qoyanda. Bu, əslində, filmin sonu deməkdir. Bundan sonra valideynlər artıq xatirələrdə yaşamağa davam edir, kimi uzun müddət, kimi qısa. Yəni insanların xatirləri insan ömürləri kimidir. Bəzi insan çox, bəzisi az yaşayır. Qaraca atasının ölümündən sonrakı duyğularını "ölümün işığında" kimi ifadə edib. Böyük ədəbi tapıntı və bir o qədər də dərin fəlsəfi mənadır. Ölüm yalnız yeni həyata yer hazırlamır, həm də öz işığı ilə yaşayanlara yol göstərir. Ona görə, belə məşhur aforizm meydana çıxır: ölülər dirilərin müəllimləridir.




Bir dəfə Amerikada yeni sənətlər muzeyində 12 metr uzunluğunda, iki metr enində, gözəl çərçivəyə salınmış bir kətan gördüm. Bu muzeyin ən qiymətli eksponatlarından idi. Kətana diqqətlə baxdım. Düşündüm, yəqin rəssam kətanda elə əsər yaradıb ki, ilk baxışdan görə bilmirəsən. Azı yarım saat baxdım, gay sağdan, gah soldan, gah yaxından, gah uzaqdan, heç nə görmədim. Özümü saxlaya bilməyib, "əsər bunun harasındadır" deyə soruşdum. Dedilər ki, elə bu kətan parçası əsərin özüdür. Rəssamın ideyası bundan ibarətdir ki, əslində, bütün təsvirlər kətan üzərində olduğundan, ağ kətan parçası milyonlarla əsərin əsasını təşkil edir və bu kətanın qarşısında durub, sən istədiyin mənzərəni onda təsəvvür edə bilərsən.Bu, mənə çox düşündürücü gəldi.

Sükut butun səslərin, ağ işıq butun rənglərin məcmusu olduğu kimi, yazılmamış ağ vərəq bütün şah əsərlərin məcmusundan ibarətdir. Yaradıcı ağ vərəqi qaralamağa başlayan andan ayrıca bir əsər meydana çıxmağa başlayır. Buna görə, Qaraca "ən təmiz arzularla yaşar, masamda ağ vərəqlər", -deyir.

Vərəqdə iz qoymaq hələ ədəbiyyatda, hətta tarixdə iz qoymaq demək deyil. Amma bəzən ədəbiyyatda və tarixdəki izlər ağ vərəqə salınan izdən asılı olur. Baxır, o izi kim və necə salır. Öz dövrü ilə məhdudlaşan kiməsə "böyük adam" demək olmaz. Böyük adamlar böyük tarixi dövrlər uçun yazıb-yaradır. Qaraca çox pessimisdir. "Çalış gələcəyi burax" deyir, halbuki gələcəyi buraxmaq, dünənin unudulmasını tələb edir. İndi isə dünənlə bu günün kəsişdiyi nöqtədir. Keçmişin və gələcəyin yoxdursa, indin də yoxdur.

Qaraca insan varlığına da pessimist yanaşır, o qədər ki, hətta onu "üzərinə dəri çəkilmiş bir yığın ət və sümük" kimi təsəvvür edir. Buna uyğun fikirləri vaxtilə Freyd də deyib. Ona görə, insan 60-70 kiloqram ət parçasıdır, ideya verəndə o insan olmağa başlayır və insan nə qədər böyük ideyalara yiyələnirsə, bir o qədər böyük olur.

Maksimalist dəyərləndirmə də ölçüləri kiçildir. Hamıdan qəhrəmanlıq, hamıdan insanlıq, hamıdan dahilik gözləmək olmaz. Əgər bu, mümkün olsaydı, onda həyatda nə qəhrəman, nə insan, nə də dahi olardı. Onların mövcudluğu onların tək-tək olmaları ilə bağlıdır. Ona görə, bəşəriyyəti kütlələr yox, ayrı-ayrı fərdlər xilas edir. Sonunu düşünən qəhrəman ola bilmədiyi kimi, özündən sonra ona münasibəti düşünən də böyük adam ola bilmir. Buna görə, böyük adamlar böyük tarixi dövrlərdən sonra böyük gorunməyə başlayır. Bu da təbiidir. Dağın zirvəsini onun dibində durmaqla görmək olmür. Bəzi xalqların dahiləri neçə yüzillər sonra tanınır, halbuki öz dovrünün insanları belə bir dahinin mövcudluğundan bixəbər olur.

Söhərət nə qədər yaxşı olsa da, şöhrətə can atmaq bir o qədər pisdir. İnsan öz əməyinin mükafatı haqqında düşünürsə, o, heç vaxt nəhəng yaradıcılıqla məşğul ola bilmir. Qələbə qalibi yuxuya verdiyi kimi, şöhrət də yaradıcı insanları arxivə verir. Belə adamlar canlı meyitlər kimidir. Onlara yalnız keçmişinə görə hörmət edir, bu gününə görə söyür, sabahına görə çıxdaş edirlər. Ona görə, bir şerinin çap olunmasını özünə səadət bilən yazıçı yetkinləşəndə cild-cild kitablarının çap olunması zamanı özünü xoşbəxt hiss edə bilmir. Cünki insan çatmadığı yüksəkliyə zirvə deyir, çatdınsa, artıq o zirvə sənin üçün yox olur.

Uşaqlara nağıl xoş gəldiyi kimi, yaşlılara da xəyallar elə xoş gəlir. Çünki əlçatmazlıq insanın insan kimi yaşamasının yeganə stimuludur. Əlçatan heç nə bizə həyat eşqi vermir. Uşaqlar nağılların ardınca getmir, əksinə, nağılları öz həyatına gətirir, özünü nağılın içində təsəvvür edir. Böyüklər, bunun əksinə, arzularının dalınca gedir və bu zaman şirin arzular açı dadmağa başlayır. Həyat hamıya onun istədiklərini asanlıqla və əvəzsiz vermir. Bəzən isə çox baha qiymətə satır. İstedadlar da arzuların dalınca gedəndə, onun acılığını dadmalı olur. Arzu nə qədər böyük və əlçatmazdırsa, bir o qədər də acıdır.

Qaraca folklorşünaslıq təcrübəsini "nağılların ardınca" kimi ifadə edir. Mən özüm də vaxtilə folklor topladığımdan və folklorla bağlı elmi araşdırma apardığımdan, əslində, folklorun yaşlı insanların uşaqların nağılları dərk etdiyi kimi həyatı dərk etmələrindən meydana çıxdığını özüm üçün müəyyən etmişdim. Buna görə, nağılların ardınca gedən istənilən insan uşağa çevrilir. Uşaq kimi məsum və uşaq kimi sadəlövh olur.

Adamlar yalnız fərqli dillərdə danışdıqlarına görə bir-birini başa düşmür, həm də fərqli hisslər yaşayanda və ya düşünəndə bir-birini anlamır. Sevməyən sevəni anlaya bilməz. Sevməyən sevən kimi nə görür, nə eşidir. Buna görə deyirlər ki, "Leyliyə Məcnunun gözü ilə bax", yalnız onda Leylinin gözəlliyini görə bilərsən.

Qaraca kimi düşünmədən Qaracanı anlamaq mümkün deyil. Qaraca yaşlı bir adam cilidindəki sadəlövh uşaq olaraq qalır. Çox kövrəkdir və adama elə gəlir ki, onun günü ağlamaqla keçir.

*(Ardı var)*



# Əsəd Suriyadan necə qaçdığını açıqladı

## O, qaçmadığını, sadəcə, hərbi əməliyyatları izləmək və rus müttəfiqlərilə koordinasiya aparmaq üçün Latakiyaya getdiyini iddia edir...

**Silahlı müxalif qrupların Dəməşqə hücumuna görə Suriya prezidenti postunu qoyub qaçan Bəşər Əsəd hakimiyyət dəyişikliyindən sonra ilk açıqlamasını verib.**

Hurriyyet.az xarici KİV-ə istinadla xəbər verir ki, yaydığı rəsmi bəyanatda Əsəd iddia edir ki, guya vətəndaş müharibəsi və ondan sonrakı hadisələr zamanı heç vaxt istefa vermək və sığınacaq istəmək barədə düşünməyib.



**Statement by President Bashar al-Assad on the Circumstances Leading to his Departure from Syria**

**Moscow – 16 December 2024**

As terrorism spread across Syria and ultimately reached Damascus on the evening of Saturday 7th December 2024, questions arose about the president's fate and whereabouts. This occurred amidst a flood of misinformation and narratives far removed from the truth, aimed at recasting international terrorism as a liberation revolution for Syria.

At such a critical juncture in the nation's history, where truth must take precedence, it is essential to address these distortions. Unfortunately, the prevailing circumstances at the time, including a total communication blackout for security reasons, delayed the release of this statement. This does not replace a detailed account of the events that unfolded, which will be provided when the opportunity allows.

First, my departure from Syria was neither planned nor did it occur during the final hours of the battles, as some have claimed. On the contrary, I remained in Damascus, carrying out my duties until the early hours of Sunday 8th December 2024. As terrorist forces infiltrated Damascus, I moved to Lattakia in coordination with our Russian allies to oversee combat operations. Upon arrival at the Hmeimim airbase that morning, it became clear that our forces had completely withdrawn from all battle lines and that the last army positions had fallen. As the field situation in the area continued to deteriorate, the Russian military base itself came under intensified attack by drone strikes. With no viable means of leaving the base, Moscow requested that the base's command arrange an immediate evacuation to Russia on the evening of Sunday 8th December. This took place a day after the fall of Damascus, following the collapse of the final military positions and the resulting paralysis of all remaining state institutions.

At no point during these events did I consider stepping down or seeking refuge, nor was such a proposal made by any individual or party. The only course of action was to continue fighting against the terrorist onslaught.

I reaffirm that the person who, from the very first day of the war, refused to barter the salvation of his nation for personal gain, or to compromise his people in exchange for numerous offers and enticements is the same person who stood alongside the officers and soldiers of the army on the front lines, just meters from terrorists in the most dangerous and intense battlefields. He is the same person who, during the darkest years of the war, did not leave but remained with his family alongside his people, confronting terrorism under bombardment and the recurring threats of terrorist incursions into the capital over fourteen years of war. Furthermore, the person who has never abandoned the resistance in Palestine and Lebanon, nor betrayed his allies who stood by him, cannot possibly be the same person who would forsake his own people or betray the army and nation to which he belongs.

I have never sought positions for personal gain but have always considered myself as a custodian of a national project, supported by the faith of the Syrian people, who believed in its vision. I have carried an unwavering conviction in their will and ability to protect the state, defend its institutions, and uphold their choices to the very last moment.

When the state falls into the hands of terrorism and the ability to make a meaningful contribution is lost, any position becomes void of purpose, rendering its occupation meaningless. This does not, in any way, diminish my profound sense of belonging to Syria and her people – a bond that remains unshaken by any position or circumstance. It is a belonging filled with hope that Syria will once again be free and independent.

**END**

Onun sözlərinə görə, o, dekabrın 8-i səhər tezdən - silahlı dəstələr paytaxta yaxınlaşan vaxta qədər Dəməşqdə qalıb və yalnız həmin günün axşam saatlarında Suriyanı tərk edib. Bəyanatda deyilir ki, o, Dəməşqdən əvvəlcə Rusiyanın Xmeymim aviabazasına gedib və orada paytaxtın üsyançılar tərəfindən tutulmasından xəbər tutub. Bundan sonra Əsəd “terrorçular tərəfindən ələ keçirilən ölkədə” prezident olaraq qalmağı mənasız hesab edib.

Əsədin sözlərinə görə, o, qaçmayıb, sadəcə, “hərbi əməliyyatları izləmək və rus müttəfiqlərilə koordinasiya aparmaq üçün” Latakiyaya gedib: “Latakiyadakı bazaya çatanda qüvvələrimizin bütün döyüş mövqelərindən tamamilə geri çəkildiyi, ordunun son mövqelərinin düşdüyü məlum olub və vəziyyət pisləşməkdə davam edib”. Suriyanın eks-prezidenti vurğulayıb ki, bundan sonra Moskva ona Rusiyaya təcili təxliyə təklif edib: ”Bu, Dəməşqin süqutundan bir gün sonra, son hərbi mövqelərin süqutundan və bunun nəticəsində bütün qalan dövlət qurumlarının iflic olmasından sonra baş verdi”.

Keçmiş prezident iddia edir ki, guya bu hadisələr zamanı o, “heç vaxt istefa vermək və ya sığınacaq istəmək haqqında düşünməyib”.

Əsəd açıqlamasında bildirib ki, üsyançıların hücumu zamanı “terror bütün Suriyaya yayılıb və nəticədə dekabrın 7-si axşam Dəməşqə çatıb”.

Əsəd əlavə edib ki, onun bəyanatı daha əvvəl dərc edilməli idi. Lakin ”təhlükəsizlik səbəbindən rabitənin tamamilə kəsilməsi də daxil olmaqla, o zaman hökm sürən şərtlər bu bəyanatın yayımlanmasını gecikdirdi”.

Maraqlı olan yalnız odur ki, indi heç bir dəyəri və mənası olmayan bu bəyanat nədən bu qədər gecikdirilib? Görünür, öz şəhərlərini bombalayan, yüzminlərlə günahsız insanın ölümünə, milyonlarla suriyalının qaçqın düşməsinə səbəbkar olan Əsəd son günə qədər müttəfiqləri İran və Rusiyadan hansısa addımlar gözləyibg

**RƏŞAD**

# ADP Bəşər Əsədin mühakimə olunmasına çağırış etdi...

## Partiya dövlət başçısını Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə töhfə olaraq, həbsdə olan jurnalistləri və aktiv siyasiləri əfv etməyə də çağırıb



**Dünən ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən “Hürriyyət”ə verilən məlumata əsasən, toplantı iştirakçıları Suriyada Bəşər Əsəd rejiminin devrilməsindən sonra ötən həftə ərzində cərəyan edən hadisələrə bir daha münasibət bildirib.**

Qeyd edilib ki, bu ölkədə baş verən hakimiyyət dəyişikliyi Suriya xalqının diktatura rejiminə qarşı fədakarcasına, ardıcıl olaraq apardığı mübarizə və göstərilən beynəlxalq təzyiqlər vasitəsilə həyata keçirilib. Partiya yetkililəri Bəşər Əsədin öz xalqına qarşı törətdiyi bəşəri cinayətlərə görə həm özünün, həm də bu vaxta qədər onun ayaqda qalmasına, qanlı rejiminin davam etməsinə stimul verən Rusiya və İranın beynəlxalq məsuliyyət daşıdığını diqqətə çatdırıb və Əsədin Beynəlxalq Tribunal önünə çıxarılmasının, ən layiqli qaydada cəzalandırılmasının vacibliyini bildirib. İdarə Heyəti Suriya xalqının azadlıq mübarizəsində qardaş Türkiyənin sərgilədiyi rolu, Əsəd rejiminin bəlalarından qaçan milyonlarla insana sığınacaq verməsini və hakimiyyət dəyişikliyindən sonra Suriyanın suverenliyi, ərazi bütövlüyü çərçivəsində yeni dövlət quruluşuna hərtərəfli yardımlar göstərməsini təqdir edib və Azərbaycan hakimiyyətini də bu humanist addımlara qoşulmağa çağırıb.

İdarə Heyəti Ukrayna ilə Rusiya arasında davam edən və getdikcə hər iki tərəfdən on minlərlə dinc insanı qurbanına çevirən qanlı müharibənin ortaya qoyduğu acı mənzərədən bir daha narahat olduğunu bildirib və dünya dövlətlərini bu müharibənin beynəlxalq hüquq çərçivəsində həllini tapması üçün həmrəylik göstərməyə çağırıb. Partiya yetkililəri, həmçinin, Rusiya Təhlükəsizlik Şurasının müavini Dmitri Medvedevin Vahid Rusiya Patiyasının qurultayında Rusiyanın nəinki Ukraynanın, digər qonşu dövlətlərin əraziləri hesabına Rusiyanın ərazisində yeni regionların yaranmasının mümkünlüyü ilə bağlı səsləndirdiyi imperialist, təcavüzkar iddialı sərsəm bəyanatını qətiyyətlə pisləyib və bu cür cəhdlərin postsovet məkanına daxil olan bütün ölkələr üçün təhdid olduğunu bildirib.

İdarə Heyəti qonşu Gürcüstanda keçirilən axırıncı parlament seçkilərindən sonra seçki saxtakarlığına qarşı başlayan xalq hərəkatını, Rusiya yönümlü hakimiyyətə günlərlə direniş göstərilməsini təqdir edib və baş verən hadisələrin dinc başa çatmasına, sonda gürcü xalqının azad iradəsinin qalib gəlməsinə əminliyini ifadə edib və gürcü müxaliflərlə bu məsələdə həmrəy olduğunu bildirib.

İdarə Heyəti Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanmasının vacibliyini bir daha diqqətə çəkib və iki ölkə arasında vasitəçisiz olaraq baş tutacaq sülh sazişinin Cənubi Qafqazda indiyə qədər regionda böyük təsir gücünə malik dövlətlərin əngəllədiyi iqtisadi, sosial, kommunikasiya layihələrinin həyata keçməsinə stimul olacağına əminliyini ifadə edib.

İdarə Heyəti son həbslər də daxil olmaqla, ölkədə müxtəlif adlar altında həbs olunan jurnalistlərin və aktiv siyasilərin həbsdə saxlanılmasından dolayı ölkəmizin beynəlxalq nüfuzuna xələl gətirməsindən ciddi narahtlığını bir daha diqqətə çatdırıb və dövlət başçısını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə töhfə olaraq humanizm nümayiş etdirməyə, dayanaqlı barışın, həmrəyliyin və milli birliyin təminatı olan əfv fərmanı imzalamağa çağırıb.

**Hazırladı: KƏNAN**

# Kadırov döyüşçülərini Suriyaya göndərmək istəyir

## Çeçen lider Əsədi devirən müxalifətə tərəfdaşlıq da təklif edib

**Çeçenistanın rəhbəri Ramzan Kadırov Suriyada Bəşər Əsəd rejiminin devrilməsində böyük rol oynamış “Həyat Təhrir əl-Şam” qruplaşmasının Rusiyanın ”terror təşkilatları siyahısı”ndan çıxarılması prosedurunа başlamağı təklif edib.**



Hurriyyet.az xəbər verir ki, öz “teleqram” kanalında bununla bağlı paylaşım edən Kadırov cəmi 3 həftə əvvəl Kremlin ən yaxın strateji müttəfiqi olan Bəşər Əsəd rejimini devirmiş qüvvələrlə tərəfdaşlıq etməyə hazır olduğunu qeyd edib.

O, bunun guya Suriyada humanitar fəlakətin qarşısını almaq üçün lazım olduğunu yazıb. Hansı ki, uzun illərdir Suriyada yüzminlərlə insanın qətlinə və humanitar, sosial fəlakətlər, faciələr yaşamasına səbəb olan Bəşər Əsədi dəstəkləyən və törətdiyi cinayətlərdə ona kömək edən İranla bərabər məhz Rusiya olub.

Kadırov yazıb: “Kollektiv Qərb Rusiya ilə Suriyanın yeni hakimiyyət orqanları arasında eskalasiya yaratmağa çalışır, lakin biz belə bir ssenariyə imkan verməyəcəyik”.

Onun sözlərinə görə, Moskva və Dəməşqdə hakimiyyətə gələn müxalifət qüvvələri “ilk əlaqələri qura və problemləri həll etməyə başlaya biləcək təmas qrupu” təşkil etməlidir.

Kadırov digər məsələlərlə yanaşı, çeçen polislərinin Suriyaya yerli hüquq-mühafizə orqanları ilə birlikdə küçə patruluna göndərilməsini təklif edib: “Rusiyanın Suriyada hər hansı mövcudluğu sabitlik və xalqın təhlükəsizliyinə xidmət edəcək”.



# ABŞ-a sevgi monoloqu

## Mən ABŞ-ı sevirəm... özü də dəlicəsinə, yəni bir könüldən min könülə aşiq olmuşam ona...

Bir də, niyə axı sevməyim ki?.. Maşallah, cəsarətlidir, qüdrətlidir, yekəpərdir, qılıncının dalı da kəsir, qabağı da. Lazım gəlsə, lap belə xoruzu da yumurtlayar. İgid istəyirəm, durub sözünün qabağına söz çıxarsın, oğul istəyirəm ki, gözün üstə qaşın var desin ona! Gördünüz də neynədi? Bə deyirdilər, bağ belə, bostan belə, ay nə bilim, "burda mənəm, Bağdadda kor xəlifə?!.. " Nooldu?.. Həmin o kor xəlifənin xələfləri-ni elə günə qoydu ki, sələfləri qəbirdə fırlandılar.

Ərz eləyim ki, hazırda sinəsinə döyən elə bir dövlət tapılmaz ki, ağız bəhəm eləyib ABŞ-la kəllə-kəlləyə gəlsin. Gəlmək istəyəni də elə kökə salır ki, dəymişi dura-dura kalı tökülür. Dağ boyda topdağıtmaz SSRİ-ni göz qabağında diz çökdürmədimi? Və çökdürübən dilim-dilim doğramadımı?! Elə bilirsiniz, bu elə özbaşına baş verdi? Yox, mənim əzizlərim, bu, çox qəliz, müəmmalı, çox da mütəqəlqəl bir məsələydi... Belə qlobal işlərdə ABŞ-ın barmağı, özü də baş barmağı olmasaydı, mümkün olmazdı.

Vyetnamda, Çilidə və Salvadorda, Panamada və Konqoda, canım sənə desin, Qrenadada, İranda və Luandada, Nikaraquada və Əfqanıstanda ABŞ-ın çıxardığı hoqqalardan hətta məşhur gözbağlayıcı Hopperfild də baş aça bilmədi. Yazıq Hopperfild möcüzəvi Tac-Mahalı, Parisin Eyfel qülləsini yox eləyir və beş-on dəqiqədən sonra qaytarıb öz yerinə qoyur. ABŞ isə bütöv bir şəhəri, şəhər nədir, bütöv-bütöv məmləkətləri yerlə-yeksan eləyir və sonradan yerinə-yurduna qaytarıb-zad eləmir...

İndi əyri oturaq, düz danışaq: yüz adamın, yaxud min adamın gözündən pərdə asmağa nə var ki, hünərin var, saysız-hesabsız ölkələrin, dövlətlərin, millətlərin bəxtini bağla, ağzını qıfılla, gözünə də kül üfür. Misal üçün, hansı ustad illüzionçu belə nömrə göstərə bilər ki, harasa demokratiya toxumu səpsin və o toxumdan qayıdıb qan cücərsin, göynərti və ölüm göyərsin? Belə fokusları kim eləyə bilər? Kim bacarar bunu, hə?

Yəqin ki, öz yaratdığı Frankenşteyn adlı əcaib varlığın qurbanına çevrilən biçarə həkimdən xəbəriniz var... Üsamə ben Laden kim idi ki, - ata-oğul Buşların Frankenşteyni deyildi məgər?.. Di gəl, ABŞ ben Ladeni elə yoğurub-yapdı ki, axlrda Laden-Frankenşteyn əlindən gələni nəinki beş qaba, heç, boş qaba da çəkə bilmədi. Hərçənd, artıq əhli-məmləkətlər yaxşı bilirlər ki, "bir nömrəli terrorist " Üsamə ben Laden, əslində, adicə "peşka " idi. O mənada ki, gözünə döndüyüm ABŞ ondan bir vasitə kimi istifadə eləyib atdı. Atdı ki, at oynadıb ad çıxarsın dünyada. Elə oynadır da! Yaxşı da eləyir. Fakt budur ki, bu gün o, yəni cənabi ABŞ özünü şappadan beynəlxalq terrorizmlə mübarizə meydanına atıb. Atıb və bununla kürreyi-ərzə elə bir "xox " gəlib... "mənəm-mənəm " deyən bir kişi istəyirəm ki, onun müqabilində cınqırını çıxarıb "mıqq " eləsin. "Mıqq " eləyən olsa da, lappadan o "xox "un həmqafiyəsinə düşər.

Bəs necə? Gəmidə oturub gəmiçiylə dalaşmaq olar?..

Nəhayət, hamı bir nəfər kimi anlamalıdır ki, hörmətli və möhtərəm ABŞ həzrətləri dünya gəmisinin yeganə şanlı kapitanı və canlı sükanıdır - vəssalam! Gəmi isə, sükana tabe olmayanda, sualtı qayalara ram olar...

İndi bəzi-bəzi ağzıgöyçəklər ağızlarını Allah yolunda qoyub bəzi-bəzi qeybətlər eləyirlər ki, guya, ABŞ İsrailə ona görə dəstək verir ki, onlar Fələstində, Livanda, Suriyada terrorçuluqla müharibə maskası altında öz vandallıqları və talançılıqlarıyla məşğul olub ərazilərini genişləndirsinlər, ən əsası, müsəlman ümmətinə qənim kəsilsinlər... və sair və ilaxır. Əslində, əcəb eləyirlər! Lap belə, əllərinin içindən gəlir. "Əlinin içində bir noxud var, noxudun içindən gəlir!"

İlana zəhər verən kərtənkələdir! Və bu əməkdaşlıq-tərəfdaşlıq əlaqələri ABŞ-İsrail band... cütlüyünün dostluq-qardaşlıq manifestinin əsasını təşkil edir. Biri ilan olanda, o biri kərtənkələ olur, amma vaxtaşırı yerlərini və funksiyalarını dəyişirlər...

Yoxsa onlar da, müsəlmanlar kimi, bir-biriylə didişməli, fal-fal doğranmalı və qurama sünni-şiə problemiylə özlərinə əbədi məşəqqət yaratmalıdılar?! Yox və bir də yox! Mənim, Allahdan bərəkət gözləyib, hərəkət etmək istəməyən din qardaşlarım! Biz hələ duza gedirik. Biz hələ çox mətləblərdən agah deyilik və belə getsə, hələ uzun müddət fil qulağını özümüzə ən rahat çarpayı hesab edəcəyik...

ABŞ dədəsi kor demiş qoluzorlu yekəpər bir oğuldur - gəlib-gedəni zopalayır, zopalayıb, zopalayacaq da. Və heç kim də cürət eləyib, "nöş belə eləyirsən, alə?! " - deyə bilməyəcək.

İndi bəzi-bəzi ağzıgöyçəklər ağızlarını Allah yolunda qoyub bəzi-bəzi qeybətlər eləyirlər ki, guya, ABŞ İsrailə ona görə dəstək verir ki, onlar Fələstində, Livanda, Suriyada terrorçuluqla müharibə maskası altında öz vandallıqları və talançılıqlarıyla məşğul olub ərazilərini genişləndirsinlər, ən əsası, müsəlman ümmətinə qənim kəsilsinlər... və sair və ilaxır. Əslində, əcəb eləyirlər! Lap belə, əllərinin içindən gəlir. "Əlinin içində bir noxud var, noxudun içindən gəlir!"

Sözümün canı, məğzi və mustafası budu ki, ABŞ-ın diliylə bahəm, dilçəyi də var! İndi papağımızı, papağımız yoxsa, "şəpkəmizi" qoyaq qabağımıza, çorta gedək... Və bilək, anlayaq ki, belə bir dövlət üçün bayılıb sino getməyənlər axırda mütləq... özündən gedər. Hə, indi belə bir qəşəng-gözəl dövlətə hayıl-mayıl olmayıb neyləyəsən?..

Mənə elə bir möhtəşəm və elə bir ustad dərzi, uzaqbaşı, elə bir dəllək göstərin ki, onun ABŞ qədər və ABŞ kimi qayçıyla manipulyasiya eləmək istedadı olsun. Kefi istəyir - kəsir, istəmir - yolur!.. Ən qəribəsi, onun qayçıyla çaldığı havaya oynayan ölkələr, - "itivə tök" qədərdi. "Na"-lı kişi kimi, olan-olmaz bütün beynəlxalq hüquq, norma və prinsiplərinə bir quş qoyub deyir ki, o key, heç o yan-bu yanı yoxdu, mən dediyim, talışların məşhur tərəvəz məhsuludu - yesəniz də budu, yeməsəniz də!..

Bəli, ABŞ hörmətli, həşəmətli, eyni zamanda həm də hirsli-hikkəli, bomba və bombalı bir ölkədir. Necə deyərlər, vuran əli də var, pulu da, lap belə, urusca da bilir. Pul demişkən, yadıma qışda buz parçasını yağ kimi doğrayan, dağların dağlayan qurbağa rəngli dollar əskinasları düşdü... Deyin görüm, sizlərdən hansınız görüb-bilir ki, bu dünyada cansız bir şey həm hər şeyi alan olsun, həm də hər şeyi verən?.. Bəli, bu, ABŞ dollarıdır, mənim əzizlərim! Bağlı qapıları açan, açıq qapıları bağlayan - Amerika dolları! Zalım balalarının pulu puldu də! "Şıx-şıxı musiqidi, ətri bihuşdarı, hökmü alar müxalifəti, iqtidarı ". Day nə istəyirsiz? Bu fani dünyada xətrin, könlün, ürəyin, mədən, nəfsin, bir sözlə, quş südündən üzübəri, nə naz-nemət istəyirsən, dollarla ala bilərsən. Eyni zamanda, əlahəzrət Dollar, istisnasız olaraq, dünyanın hər şeyini sənə verə də bilir - vəzifədən, tituldan, zordan, qüdrətdən tutmuş, böyük-böyük hörmətə, izzətə, mənsəbə qədər, - ala da bilir!.. Bəlkə düz demirəm?! Vallahi, milyonlarla adam bu yaşıl əskinasların yolunda "uf " da demədən ölümə belə gedib, gedir və gedəcək də... Aşıq demişkən: "Canım dollar, gözüm dollar. Sən olmasan, ölüm, dollar!.. "Sadəcə, onu qazanmağı bacarmaq lazımdır; qazanmaq üçünsə, öz dövlətinin altını oğrun-oğrun, xımır-xımır qazmağı, Vətənini keçi qiymətinə satmağı və hamıya atmağı bacarmalısan, - vəssalam-şüttamam!

Bax, mən ölü, siz diri: indi əlinizi ürəyinizin başına qoyub, deyin görüm, bütün bunlardan sonra ABŞ-ı sevməmək, ona dəlicəsinə vurulmamaq, onunçun sinov getməmək olarmı?!

Məncə, hər ehtimala qarşı, yəni məni agent-magent çıxarmasınlar deyə, əlavə etməliyəm ki, bayaqdan ABŞ barədə dediklərimdə barıtın çox olmasına elə də zad eləməyin... Çünki bütün bunların bizlərə, yəni bizim məmləkətə bir damcı da dəxli yoxdu. ABŞ, kim olursa-olsun, heç yel olub bizim həndəvərimizdən də keçə bilməz. Noolsun ki, onun topu-tüfəngi var, zato, bizim də vuran əlimiz, dəmir yumruğumuz, üstəlik, yağlı urus şapalağımız var! Müxtəsəri, ABŞ-mabış bizə hesszad eləyə bilməz!! Duxu çatmaz!!!

**Eldəniz QULİYEV**



# İllər sonra ortaya çıxan şok gerçəklər



## İlham Rəhimovla Rəbiyyət Aslanovanın evliliyi niyə cəmi 6 ay sürdü?



## Və yaxud bunun "siyasi evlilik" kimi təqdim olunması kimlərin marağına xidmət edirdi?

**I YAZI**

**İstənilən ölkədə siyasi evliliklər hər zaman olub. Xüsusilə də qeyri-demokratik, avtoritar rejimlərdə bu, belə desək, daha çox "dəbə" çevrilir. Çünki xalqın maraqlarına zidd fəaliyyət göstərən, addımbaşı qanunları tapdalayan məmurlar özlərini bu cür siyasi evliliklərlə "qarant" altına almağa çalışırlar.**

Bir zamanlar Azərbaycanda da oxşar mənzərə mövcud idi. Hər halda, "qudalar hakimiyyəti" deyimi səbəbsiz yerə ortaya çıxmamışdı. Elə indinin özündə də bir-biri ilə quda olan, bu və ya digər şəkildə qohumluq əlaqəsi quran məmurların sayı az deyil. Zaman-zaman bu haqda informasiyalar mətbuata da "ayaq açır". Amma bəzi hallarda mətbuatın siyasi çalar qatdığı elə evliliklər də var ki, bunlar sadəcə, məlumatsızlıqdan, yaxud məqsədli şəkildə ötürülən dezinformasiyalardan qaynaqlanır. Necə ki, vaxtilə sabiq deputat, Milli Məclisin İnsan Hüquqları Komitəsinin keçmiş sədri Rəbiyyət Aslanova ilə cəmiyyətdə Putinin dostu kimi tanınan iş adamı İlham Rəhimovun nikah masasına əyləşmələri də "siyasi evlilik" kimi təqdim olunurdu.

Məsələn, özlərini "ciddi media" kimi təqdim edən bəzi nəşrlər yazırdı ki, guya, Rəbiyyət Aslanova təxminən 60 yaşında İlham Rəhimovun evlilik təklifinə oğlunu siyasi kariyerasının zirvəsinə daşımaq məqsədilə "hə" demişdi. Guya, xanım Aslanova "çiçəyi burnunda" həyat yoldaşı vasitəsilə həmin dönəmdə Prezident Administrasiyasında mühüm vəzifədə çalışan oğlunu Rusiya prezidenti Valdimir Putinlə görüşdürmək və onun dəstəyi ilə daha böyük vəzifələrə təyin etdirmək fikrində olub. Bu səbəbdən də, Elnur Aslanovun gələcək siyasi karyerası üçün bütün qınaqları göz önünə alaraq İlham Rəhimovla nikaha girməyə razılaşıb. Obrazlı desək, o, İlham Rəhimovu oğlu üçün Kremlin qapılarını açan bir açar kimi əldə etmək istəyib.

Həta o dönəmdə bəzi mətbu oraqanlar yazırdı ki, evləndikdən az sonra Rəbiyyət Aslanova İlham Rəhimovdan israrla onu və oğlunu Putinlə tanış etməyi xahiş edib. Qarşı tərəf isə ümumi tədbirlərin birində yeni həyat yoldaşını ayaqüstü Putinə təqdim edib. Ancaq xanım Aslanova belə ayaqüstü təqdimatdan razı qalmayıb, çünki daha yaxın tanışlıq üçün "ailəvi bir görüş" arzusunda olub. Lakin evlilikləri qısa sürdüyündən İ.Rəhimov həyat yoldaşının bu istəyini reallaşdıra bilməyib.

Əlbəttə, bu iddialar ya jurnalist təxəyyülünün məhsulu, ya da məqsədli şəkildə ortaya atılmış, həqiqəti əks etdirməyən informasiyalar idi. Üstəlik, bu məlumatların yalan olduğu bu gün ortaya çıxmayıb, cütlüyün 6 aylıq uğursuz evlilik müddəti başa çatdıqdan qısa müddət sonra bu, hər kəsə bəlli idi. Lakin bu evliliyin niyə uğursuz olmasının, kifayət qədər ciddi iki insanın qısa müddət sonra nə üçün ayrılmaq qərarına gəlməsinin gerçək səbəbləri hələ də cəmiyyətdə çox az insana bəllidir. Odur ki, biz yazımızda ölkə mətbuatının uzun müddət müzakirəsində olan və "siyasi evlilik" kimi təqdim olunan bu nikahın nə üçün qısa müddət sonra ayrılıqla nəticələndiyini açmağa çalışacağıq.

Öncə onu qeyd edək ki, mətbuatın yazdığının əksinə olaraq, bu evlilik Rəbiyyət Aslanovanın təşəbbüsü ilə baş tutmayıb. Doğrudur, tərəflər arasında sonradan evliliyə qədər gedib çıxan ünsiyyətin tarixi çox da əvvələ gedib çıxmır. Yəni bu yaxınlıq evlilikdən bir neçə ay əvvəl - 2012-ci ilin fevralında İlham Rəhimovun "Cinayətkarlıq və cəza" kitabının BDU-da təşkil olunan təqdimat mərasimi zamanı yaranıb. Belə ki, bu tədbirdən sonra İ.Rəhimov "kitabını yumaq" üçün BDU-nun müəllimi olan tanıdığı xanımı və universitetin kafedra müdiri R.Aslanovanı restorana dəvət edib. İkinci bu təklifdən imtina etsə də, ortaq tanışları və rəfiqəsi olan həmin xanımın israr etməsindən sonra razılaşmağa məcbur olub. Beləliklə, onlarla birgə daha 2-3 qadın da İlham Rəhimova məxsus "Aristokrat" restoranına gediblər. Sonralar bu qonaqlılar daha məhdud çərçivədə, ancaq R.Aslanova və rəfiqəsinin iştirakı ilə keçirilməyə başlayıb. Burada da əsas təşəbbüskar İ.Rəhimov olsa da, üzdə olan "təşkilatçı" xanım Aslanovanın rəfiqəsi olub.

Belə ziyafətlərin birində İlham Rəhimov rəsm əsərlərinə böyük maraq göstərməsindən, hətta kolleksiyasında bir sıra nadir nüsxələr olduğundan bəhs edib. Bu zaman BDU-nun müəllimi olan xanım, guya, həmin əsərlərin onun çox marağını çəkdiyini və görmək istədiyini deyib. Nəticədə, İ. Rəhimov xanımları restoranın üstündəki evinə dəvət edərək, bahalı rəsm əsərlərini onlara nümayiş etdirib.

Beləliklə, bir neçə aylıq "tanışlıqdan" sonra İlham Rəhimov məhz Rəbiyyət Aslanovanın yaxın rəfiqəsi olan həmin müəllimənin təhriki ilə xanım deputata evlilik təklif edib və dərhal olmsa da, müəyyən müddət sonra razılıq alıb. Əlbəttə, R.Aslanovanın İ.-Rəhimovun evlilik təklifinə dərhal "hə" deməməsinin əsasən iki səbəbi olub. Birincisi, 60 yaşda evlənməsinin Prezident Administrasiyasında çalışan oğlunun siyasi kariyerasını zərbə altında qloya biləcəyindən ehtiyat edib. İkincisi isə, həmin dönəmdə İlham Rəhimovun adı həmyerlisi olan bir müğənni ilə hallanır, hətta onların öz aralarında vətəndaş nigahı bağladıqları bildirilirdi.

Xanım deputat bütün bu narahatçılıqlarını rəfiqəsinə də danışmış, hətta İ.Rəhimovun təklifinə "yox" deyəcəyini söyləmişdi. Bu söhbətdən bir gün sonra rəfiqəsi R.Aslanova ilə görüşərək, narahat olduğu məqamlarla bağlı üstüörtülü İlham müəllimlə söhbət etdiyini, qarşı tərəfin bu iddiaları yalanladığını və bu haqda onun özü ilə danışmaq istədiyini bildirib. Nəhayət, bu məsələ yemək süfrəsi arasında üçlükdə müzakirə olunub və İ.Rəhimov sözügedən müğənni - Ruhiyyə Əliyeva ilə ciddi yaxınlığının olmadığını deyib. Hətta etiraf edib ki, onunla bir neçə dəfə ötəri münasibətdə olub və bundan irəliyə gedən heç bir yaxınlıq da ola bilməz.

Beləliklə, İlham Rəhimov rəfiqəsinin də dəstəyi ilə xanım deputatın "saqqızını oğurlamağı" bacarıb. Amma onların evliliyi üçün əsasə maneə hələ ortada olduğundan, Rəbiyyə Aslanova bu təklifi övladları ilə məsləhətləşdikdən sonra qərar verəcəyini bildirib.

R.Aslanova elə həmin gün İlham Rəhimovun evlilik təklifi haqda Elnur Aslanov da daxil olmaqla, 3 övladına məlumat verib. Görünür, Putinin dostu, kifayət qədər kapitala sahib olan nüfuzlu iş adamı ilə evliliyə ailədə ciddi qarşı çıxan olmadığından, Rəbiyyət xanım İlham müəllimin təklifinə "hə" deyib. Ən maraqlısı isə odur ki, İ.Rəhimov çox yox, cəmi bir həftə sonra onunla nigah masasına oturub.

Çox məşhur bir deyim var: "Məhəbbət yaşa baxmır". Təxminən 60 yaşında evlilik haqda qərar verən cütlük ömürlərinin qalanını birgə yaşayacaqlarına şübhə etməyiblər. Çünki qısa müddətdə aralarında "sevgi bağı" yaranıb. Əlbəttə, bu sözlərim kimlər üçünsə bəlağətli görünə bilər, amma yaxınları yaxşı bilir ki, bu evlilik onların həyatında böyük dönüş yaradıb. Məsələn, ilk baxışdan tərəddüd etsələr də, sonradan analarını xoşbəxt görmək R.Aslanovanın övladlarını da məmnun edib. Bu səbəbdən də, onlar İlham Rəhimova çox böyük sayqı ilə yanaşıb, onu tez-tez evlərinə dəvət edib, bir növ, qaynayıb-qarışıblar. Təsadüfi deyil ki, R.Aslanovadan ayrıldıqdan qısa müddət sonra İ.Rəhimovun özü də bu haqda açıqlama verib: "Milli Məclisin deputatı, professor Rəbiyyət xanım Aslanova cəmiyyətimizdə kifayət qədər tanınmış, ziyalı bir xanımdır. Uzun illərdir tanıyıram, ona və övladlarına həmişə böyük hörmətim olub, indi də var..."

Lakin, təəssüf ki, bu xoşbəxtlik cəmi 6 ay çəkib. İ.Rəhimovun bəlkə də keçmiş səhvlərindən qaynaqlanan aldığı bir xəbər onunla yanaşı, yenicə ailə qurduğu R.Aslanovanın həyatını alt-üst edib.

Bəs, o xəbər nə idi? Bütün bunlarla bağlı növbəti sayımızda daha ətraflı məlumat verəcəyik. Bizi izləyin.

**G.Ə.**

**Redaksiyadan: Bu yazı hazırda Avropada yaşayan və müəyyən səbəblərdən adını tam olaraq açıqlamayan xanım jurnalist tərəfindən qələmə alınıb. Yazıda qeyd olunan fikirlərlə bağlı maraqlı tərəflərin mövqeyini dərc etməyə hazırıq.**

# İcra Hakimiyyətinin şöbə müdirinə qarşı rüşvət ittihamı

## Xaçmaz sakini: "Kamil Gəncəliyev tikintiyə icazə verməsi üçün məndən 15 min manat rüşvət tələb etdi"

**Xaçmaz rayon sakini Nəcəfov İbrahim Zahir oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, İcra hakimiyyətindən tikinti üçün icazə alsada sonradan ona problem yaradıblar.**



"Mən, Nəcəfov İbrahim Zahir oğlu, yazaraq bildirirəm ki, 2024-cü ilin əvvəlində Xaçmaz rayon İcra Hakimiyyətinin Tikinti nəzarət şöbəsinin müdiri Kamil Gəncəliyev tikintiyə icazə sənədi verməsi üçün məndən 15 000 manat məbləğində (rüşvət) tələb etdi. Bu barədə lazımi qurumlara məlumat vermişəm. 1 dəfə Nazirlər kabinetində, 2 dəfə də Prezident Administrasiyasında olmuşam. Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Nazim Rəcəbovun qəbuluna yazıldım, amma qəbul etmədi. Yəni bütün qurumlara yazmağıma baxmayaraq, məsələ ilə maraqlanan olmayıb.

Bir müddət keçdikdən sonra məni Xaçmaz rayon İcra Hakimiyyətinə dəvət etdilər. Orada icra başçısı Elnur Rzayevlə görüşdüm. Elnur Rzayev pul məsələsindən xəbərsiz olduğunu bildirdi. Bu işdə mənə kömək etməsi üçün 1-ci müavini Anar müəllimə göstəriş verdi. Anar müəllim isə şikayətimi geri götürməyimi təklif etdi. "Şikayətini geri götür, daha sonra köməklik göstəriləcək", - dedi.

Mən də Xaçmaz rayon Polis şöbəsinə gedərək, İcra Hakimiyyətinin başçısı ilə razılaşdığımız, aramızda artıq problem olmadığı barədə izahat verdim. İşin gedişatı ilə əlaqəli daimi olaraq 1-ci müavin və şöbə müdiri Fuad müəllimə məlumat vermişəm.

Beləliklə, tikinti işləri yekunlaşmaq üzrə olanda, beton kəmərin töküldüyü gün Xaçmaz rayon Polis şöbəsinin PPX əməkdaşları gələrək bizi Xaçmaz rayon polis şöbəsinə apardılar. Şöbədə məndən tikintiyə icazə sənədini təqdim etməyimi isdədilər. Mən də tikintiyə qanuni icazəmin olmadığını, müavin Anar müəllimin icazə verdiyini bildirdim. Onlar mənə "Anar müəllim bizə sənin barəndə qanuni tədbir görməyimizi tapşırıb və biz səni 800 manat məbləğində cərimə edəcəyik", - dedilər.

Mənə heç bir rəsmi xəbərdarlıq olunmadan, tikinti işlərinin dayandırılması ilə əlaqədər rəsmi məktub göndərilmədən barəmdə protokol tərtib etdilər və 395-ci maddəni yazdılar.

Hazırda tikinti işləri dayandırılıb, heç bir iş görülmür.

Ən maraqlısı odur ki, tikintiyə icazə veriləndən sonra niyə məhz sonda məni cərimə edirlər və tikintini dayandırmağımı tapşırırlar?! Bu tikinti aylardır gedir, lazımi qurumların hər birinin də xəbəri var idi.

Mən, sizin sayt vasitəsilə səlahiyyətli qurumlardan xahiş edirəm ki, məsələ ilə bağlı mənə köməklik göstərsinlər".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# "Oğlumu türmədə ölümə təhrik edirlər"

## Ömrülük məhbusun anasından rəsmi qurumlara müraciət

**Gəncə şəhər sakini Hüseynova Mehriban Cəlil qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi deyir ki, ömürlük həbsə məhkum edilən oğlu həbsxanada özünü öldürmək həddinə çatdırılıb:**



"Mən, Hüseynova Mehriban Cəlil qızı, yazaraq bildirirəm ki, oğlum Əliyev Astan Əli oğlu hazırda 7 saylı Cəzaçəkmə Müəssisəsində cəza çəkir. 3 qrup əlilə ömürlük həbs veriblər.

Oğlumun sinəsi batıqdı, nəfəs ala bilmir. Ürək klapanları tam açılmır, ayağında varikoz xəstəliyi var, hepatit C daşıyıcısıdır. Yəni sadalamaqla bitməyən bir çox xəstəlikləri var.

1 il 4 ayda oğlumun yanına cəmi 1 dəfə getmişəm, gedə bilmirəm, maddi imkanım yoxdur. 2 dəfə "sumka" yola salmışam.

Noyabr ayının 24-də oğluma 150 manat pul göndərdim. Pulu nəzarətçinin "Kapital Bank" kartına vurmuşam. Həmin vaxt oğlumu karsa salıblarmış. Ayın 29-da "kars"dan çıxdı, zəng vurub soruşdu ki, ana, mənə pul göndərmisən? Mən də bildirdim ki, bəli, nəzarətçinin kartına göndərmişəm.

Qeyd edim ki, həmin pulu oğluma verməmişdi. Həbsdə olan, nərdtaxta düzəldən Elmar adlı şəxslə nəzarətçi Feyruz birləşib, oğlumun pulunu vermirdilər. Türməyə göndərilən pullar Elmar adlı şəxsin əli ilə dustaqlara paylanılırdı. Uzun söz-söhbətdən sonra 150 manat pulu mənim kartıma atdılar. Elə həmin gündən sonra oğlumun qara günləri başladı.

Türmənin rəisi Mehman oğlumu otağına çağırtdıraraq nalayiq sözlərlə təhqir edib, "sən işverənsən" deyib. Əlav edib ki, get anana de, 889-a zəng vurub şikayətini geri götürsün. Oğlum bunu mənə dedi, lakin zəng vurmadım. Bundan sonra bütün dustaqları oğlumun üstünə qaldırıblar. Oğlumu yenə "kars"a salıblar, ayın 11-də çıxacaq.

Sahibsiz bir adam kimi, bu yazını oxuyan səlahiyyətli qurumlardan xahiş edirəm ki, mənə və oğluma kömək edin. Oğlum əlil adamdır, səhhəti yaxşı deyil, o, "kars"da yaşaya bilməz.

Öncədən mənə məktub yazıb, özünü öldürmək istəyir. Hər kəs bilsin, oğlum türmədə ölsə, səbəbkar rəis və nəzarətçidir.

Mən çarəsiz bir ana kimi səlahiyyətli qurumlardan kömək istəyirəm. Oğlumun günahı var, cəzasını çəksin, amma orada ona edilən əziyyətlərin qarşısının alınmasını xahiş edirəm".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**



**Məğrur Bədəlsoy**

# Azərbaycan - "Azərbaycan SSR ərazisində"?

## Nazirlər Kabineti "SSR"-dən qopmaq istəmir

**Mənzil təminatı ilə bağlı qanunvericilik bazasında axtarışa çıxarkən "Azərbaycan SSR ərazisində mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan vətəndaşları uçota götürməyin və yaşayış sahələrini bölüşdürməyin Nümunəvi qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Nazirlər Sovetinin 14 oktyabr 1983-cü il tarixli, 418 N:-li Qərarını tapanda 41 ilin "sovet sosialist" qərarının qüvvəsiz olduğunu güman etdik. Heç demə, yanılmışıq. Qərar qüvvədədir və sonuncu yol 3 il qabaq QARABAĞ ZƏFƏRİNİN 1-Cİ İLİNDƏ NK-nın 19 noyabr 2021-cu il tarixli 361 N:-li Qərarı ilə Qaydaların 11-ci bəndindən "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələrinin verdiyi" sözləri çıxarılıb.**






"Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında" sözləri "Azərbaycan Respublikasının" sözləri ilə əvəz edilmişdir.

30 sentyabr 2009-cu il tarixli 157 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 10, maddə 846) ilə "Azərbaycan SSR ərazisində mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan vətəndaşları uçota götürməyin və yaşayış sahələrini bölüşdürməyin Nümunəvi Qaydaları"nın 11-ci bəndinin "v" yarımbəndində "Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin yerli qurumunun" sözləri "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələrinin" sözləri ilə əvəz edilmişdir.

19 noyabr 2021-ci il tarixli 361 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ("Xalq" qəzeti, 28 noyabr 2021-cu il, № 258, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 11, maddə 1284) ilə "Azərbaycan SSR ərazisində mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan vətəndaşları uçota götürməyin və yaşayış sahələrini bölüşdürməyin Nümunəvi Qaydaları"nın 11-ci bəndinin üçüncü abzasının v) yarımbəndindən "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələrinin verdiyi" sözləri çıxarılmışdır.

[2]




Qərarın, qaydaların içindəki "sovet , sosialist, Böyük Vətən" və s. terminoloğiyasını bir yana qoyaq, bəs başlıqdakı "SSR"-i çıxarmağa nə mane olur? Axı dövlətin BAŞ QANUNU - AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASInda AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNİN vahid, toxunulmaz, bölünməz olduğu doğrulanıb. Burda harda "Azərbaycan SSR ərazisi" yazılıb? Yoxsa Nazirlər Kabineti SSR-dən qopmaq fikrində deyil, hələ də sovetin, sosialist ölkəsinin xiffətini çəkir?

Təkcə hazırkı Baş naziri qınamaq olmur, 41 il qabaq Azərbaycan SSR Nazirlər Sovetinin sədri H. Seyidovun, işlər müdirinin müavini P. Krutovun imzaladığı qərarla təsdiq olunan qaydalarda indiyədək 1999-cu ildən 2021-ci ilə kimi 9 dəfə xırda dəyişiklik olub. Nə Artur Rasizadənin, nə Novruz Məmmədovun, nə də Əli Əsədovun bir addımlıqdakı PA-dan "yada salan" olmayıb ki, Azərbaycan- "Azərbaycan SSR ərazisində"n 35 il olar çıxıb.

"Azərbaycan SSR" ərazisində" Qarabağ, Vətən savaşı veteranlarının, qazilərinin hansı hüququndan danışmaq olar?

**Suriyada Əsəd dönəminin qapanmasndan sonra bölgənin hansı ölkənin nüfuz dairəsinə girəcəyi böyük maraq doğurur. Çünki bölgə uğrunda mübarizədən kimin qalib çıxacağından nəinki Suriyanın, hətta Yaxın Şərqin taleyi asılı olacaq.**



# Suriyada qalib kimdir?

## Xalq irtica rejimindən xilas oldu; bəs, bu dəyişiklikdən qazanclı çıxan hansı ölkələr olacaq?

Hələlik gedişatdan belə bəlli olur ki, bölgə uğrunda mübarizənin aktyorlarından ən uğurlusu və perspektivlisi qardaş Türkiyədir. Türkiyə prezident Rəcəb Tayyib Ərdoğanın fəal diplomatiyası və vasitəçilik rolu sayəsində rəsmi Ankara beynəlxalq böhranların həllində mövqeyini xeyli gücləndirib. Ankara Rusiya ilə Ukrayna, Azərbaycanla Ermənistan, eləcə də Suriya, Liviya və Somali ilə Efiopiya arasındakı münaqişələrdə uğurla vasitəçi kimi çıxış edib. Antaliyada danışıqların təşkili, Qara Dəniz Taxıl Təşəbbüsünün bağlanması və Rusiya ilə Ukrayna arasında əsirlərin mübadiləsi mühüm nailiyyətlər oldu. Türkiyə Qarabağ münaqişəsində də Azərbaycanı dəstəklədi, Yaxın Şərq və Afrikadakı böhranların həllinə fəal töhfə verdi. Prezident Ərdoğan beynəlxalq münasibətlərdə effektiv vasitəçi mövqeyini gücləndirərək aktual geosiyasi problemlərin həllinə ciddi dəstək verdi. Ümimiyyətlə, Türkiyə son illərdə ölçülüb-biçilmiş siyasəti ilə regionun "olmazsa olmaz" statuslu dövləti halına gəlib.

Türkiyə ABŞ-dan Suriyadakı yeni reallıqlar fonunda PKK ilə bağlı siyasətinə yenidən baxılmasını tələb edir. Sözsüz ki, qardaş ölkə bu məsələdə yerdən göyə qədər haqlıdır. Ankara Vaşinqtondan PKK-nın əsas maliyyə mənbəyini itirdiyini nəzərə alacağını gözləyir. Bu anlamda söhbət PKK-nın Suriyada zəbt etdiyi və satışından terror əməllərini törətmək üçün satdığı neft yataqlarından gedir. Türkiyə Müdafiə Nazirliyinin rəhbəri Yaşar Gülər də açıqlama verərək bildirib ki, Ankara, Suriyada dəyişmiş vəziyyət nəzərə alınmaqla, Türkiyədə qadağan olunmuş PKK ilə bağlı ABŞ-ın mövqeyinə yenidən baxılmasını gözləyir. Gülərin, "indiyədək ABŞ-ın Suriyaya münasibəti müəyyən idi, amma vəziyyət dəyişib. İndi hər kəs istəsə də, istəməsə də yeni reallığı qəbul etməli olacaq. Əslində, PKK və SND-nin əsas gəlir mənbələrindən biri və əsas neft bölgəsi olan Deyr əz-Zor müxalifətin nəzarətinə keçdi. Hazırda PKK bu gəlir mənbəyini itirib və ciddi maliyyə problemləri yaşayır. Nə Suriya xalqı, nə yeni rəhbərlik, nə də biz PKK-nın fəaliyyət göstərməsi üçün özünə yer açmasına imkan verə bilmərik. Bizim prioritetimiz PKK-nı məhv etməkdir. Biz bunu amerikalı dostlarımıza açıq şəkildə çatdırdıq. Onların mövqelərinə yenidən baxmalarını gözləyirik", - sözləri rəsmi Ankaranın mövqeyini əks etdirir.

Gülərin sözlərinə görə, PKK-nın Suriya qolunun rəhbəri Ferhat Abdi Şahinin ölkənin yeni administrasiyası ilə razılaşmaq və PKK bayrağından əl çəkmək istəyi ilə bağlı açıqlamaları təşkilatın yeni formalaşan şəraitdə sağ qalmaq cəhdlərindən xəbər verir. Gülərin bu nüansı vurğulaması da tam yerinə düşür:

"Bu, onu deməyə əsas verir ki, terror təşkilatı yeni dövrdə özünü xilas etməyə çalışır. Amma Suriyadakı PKK və SNA gec-tez yox olacaq. Suriyanın yeni rəsmiləri və biz bunu istəyirik. Suriyaya kənardan gələn təşkilat üzvləri oranı tərk edəcək, Suriyadan olan qrup üzvləri isə silahı yerə qoyacaq. Suriya və İraqdan olan kürd qardaşlarımızla heç bir problemimiz yoxdur, yalnız terrorçularla problemimiz var". Buradan da anlaşılır ki, ABŞ-ın Türkiyə ilə razılığa gəlməkdən başqa çıxış yolu yoxdur. İndi şərtləri Ankara diqtə edir.

Digər tərəfdən, Suriyada əli güclənən Ankara orada nüfuz savaşına girən ölkələrə sabitliyin şərtlərini də diqtə edir. Məlum olduğu kimi, uzun illər Suriyanı təsiri altında saxlamağa çalışan bir qüvvə də Rusiya idi. Rusiya rəsmi olaraq Suriya ilə bağlı Türkiyə və İranla yeni danışıqlara ümid etdiyini açıqlamışdı. Moskva bildirmişdi ki, Astana formatını davam etdirməyə ümid edir. Yəni bu, bir tərəfdən də Türkiyənin parlaq qələbəsini əlindən almağa cəhd sayıla bilər.

Belə ki, Rusiya xarici işlər nazirinin müavini, Rusiya prezidentinin Yaxın Şərq və Afrika ölkələri üzrə xüsusi nümayəndəsi Mixail Boqdanov Suriyadakı vəziyyəti müzakirə etmək üçün Türkiyə və İranla yeni görüşlər keçirməyə ümid etdiyini bildirib. Astana formatının gələcəyi və yeni danışıqların mümkünlüyü barədə suala isə Boqdanov belə cavab verib:

"Baxacağıq, ümid edirəm ki, bu olacaq. Bizim həm Türkiyə, həm də İranla yaxşı münasibətlərimiz var və düşünürəm ki, bunun davam etdirilməsi faydalı olacaq. Mənə belə gəlir".

Beləliklə, Rusiya Suriya münaqişəsinin həlli üçün Astana prosesi çərçivəsində Ankara və Tehranla əməkdaşlığı davam etdirməyi gözləyir. Əslində isə Moskva Əsədin devrilməsilə əlindən çıxan Suriyada hansısa şəkildə var olmağa cəhd edir, itki ilə barışmaq istəmir. Türkiyə Rusiyanın Suriyada iplərin əlindən çıxması ilə barışmamaq istəməməsinin fərqindədir, sadəcə Kreml indi "ilan dili çıxararaq yalvarış pozasında diz çöküb". Yəqin ki, Türkiyə Rusiya qoşunlarının Suriyadan tamamilə çıxarılmasına şübhə ilə yanaşır.



Türkiyənin müdafiə naziri Yaşar Gülər deyib ki, Ankara Rusiya qoşunlarının Suriyadan tamamilə çıxarılmasına dair heç bir əlamət görmür və bu hadisənin yaxın gələcəkdə baş verməsi ehtimalına şübhə edir.

"Rusiyanın Suriyadan qoşunlarını tamamilə çıxardığına dair heç bir aydın işarət yoxdur. Onlar texniki xidmət üçün bəzi gəmiləri Rusiyaya köçürə bilərlər. İndi oradan ayrılacaqlarını düşünmürəm. Qalmaq üçün əllərindən gələni edəcəklər. Bundan əvvəl Rusiya rəsmisi Suriyanın yeni hakimiyyət orqanları ilə bu məsələ ilə bağlı danışıqlar apardıqlarını və mövcudluğunu davam etdirəcəklərini bildirmişdi", deyən nazir həmçinin qeyd edir ki, Rusiya öz qoşunlarını Suriyanın müxtəlif bölgələrində, xüsusilə Tartus və Latakiyada yerləşdirib:

"Dedik ki, bununla bağlı (rus qoşunlarının Suriyadan çıxarılması ilə bağlı) onlara lazımi dəstəyi verə bilərik. Amma bununla bağlı hələlik heç bir müraciət olmayıb. Bölgədə baş verən son hadisələrdən sonra hər ölkənin bu bölgədə öz planları var. Müdafiə və təhlükəsizlik sektorunda baş verən bütün hadisələri yaxından izləyirik və bütün lazımi tədbirləri görürük", deyən Gülər Bəşər Əsədin Türkiyə hava məkanından istifadə etməsi ilə bağlı məlumatları da təkzib edib. Belə anlaşılır ki, Əsədə sığınacaq verən Moskvanın Suriya üzərində planları yox deyil və o müqaviməti aparmaqdan vaz keçməyib.

Rusiya kimi Suriyada sarsıdıcı məğlubiyyətlə rastlaşan bir tərəf də İrandır. Xarici siyasət yolunda sarsıdıcı məğlubiyyətə uğrayan İran hakimiyyəti cəmiyyətin müxalif düşüncəli hissəsinə bu məğlubiyyəti yumşalmaya çevirə bilməyəcəklərini göstərmək üçün ölkə daxilində "vintləri sıxmağa" başlayır.

Belə ki, İran təcili olaraq "çılpaqlığın və ədəbsizliyin təbliği"nə görə ölüm cəzasını tətbiq edib, qanunvericilikdə dəyişikliklər bu həftə qüvvəyə minəcək.

Qanunlardan birinin 37-ci maddəsinə əsasən, "ədəbsizliyi təbliğ etmək və ya yaymaqda, hicab taxmamaqda və nalayiq davranışda" ittiham olunan şəxsləri indi 10 ilə qədər həbs və 15 min dollardan çox cərimə gözləyir.

Hakimiyyət orqanlarının davranışlarını "əxlaqsız" hesab edənlər - məsələn, "təvazökarlıq standartlarının pozulmasını təbliğ etmək üçün xarici ölkələrlə əməkdaşlıq etmək" və ya "əxlaqsızlıq" nümayiş etdirmək üçün - ölüm cəzası ilə üzləşə bilər.

Ancaq belə bir qərarın aşkar və çox ciddi risklər daşıdığını başa düşmək lazımdır.

Belə ki, İranda hakimiyyətlə cəmiyyətin əhəmiyyətli hissəsi arasında genişmiqyaslı ziddiyyətlər var, "ayətullah rejimi" 45 il ərzində "yıpranıb", ölkənin müəyyən dəyişikliklərə ehtiyacı var.

Bir maraqlı nüansı da qeyd etmk yerinə düşər - iranlı müğənni Pərəstu Əhmədinin tarixi karvansaradan Youtube platformasının canlı yayımında çiyinləri çılpaq ifa etdiyi konsertinə görə cinayət işi açılıb. Belə bir hərəkəti mütləq düşünülmüş aksiya kimi qiymətləndirmək olar. Çünki təşkilatçıların və "ilham pəriləri"nin planlarına görə, belə tədbirlər kütləvi etirazların yeni mərhələsinə səbəb olmalıdır.

Beləliklə, İran hakimiyyəti hesab edir ki, Suriyada və ya digər bölgədə xarici siyasətin məğlubiyyəti daxildə də narazı ab-havanı körükləyəcək. Yəni İran hakimiyyəti daxili siyasətə xarici siyasətin pəncərəsindən baxır.

Bundan əlavə, İranın 85 yaşlı ruhani lideri Əli Xameneyi ağır xəstədir və ölkəni çox çətin hakimiyyət keçidi gözləyir, bu müddət ərzində sürprizlər mümkündür.

Tehran rejiminə yaxın mənbələr bir ay əvvəl iddia etmişdilər ki, Xameneyi ikinci oğlu Müctəba Xameneyini özünə xələf seçib və ölümündən əvvəl hakimiyyətdən əl çəkə bilər. Eyni zamanda, Müctəba Xameneyinin ABŞ-la barışmaqda maraqlı olan İran elitasının bir hissəsinin maraqlarının sözçüsü olması barədə versiya var ki, bu da İran elitasının mühafizəkar hissəsi ilə münaqişəyə səbəb ola bilər.

Üç güclü mənfi amilin eyni vaxtda üst-üstə düşməsi İranı "mükəmməl fırtına"ya apara bilər ki, onu itkisiz dəf etmək olduqca çətin olacaq.

Suriyada baş verən hakimiyyət dəyişikliyi fonunda İranda baş verənləri diqqətlə izləməyə dəyər, çünki nisbi sabitlik dövrünün tezliklə böyük təlatümlə başa çata biləcəyi hissi var.

Bu metamorfozlar İranda baş verərsə, Rusiyanın xarici siyasəti və iqtisadi vəziyyəti kəskin şəkildə pisləşəcək: Moskva ən mühüm müttəfiqlərindən birini itirəcək; İrana qarşı sanksiyaların ləğvi neft ixracının genişlənməsinə və dünya qiymətlərinin aşağı düşməsinə səbəb olacaq.

Tehran zəifləyəcək, Cənubi Qafqazda, Suriyada və bütün regionda çəkisini artıq artırmış Ankara kəskin şəkildə güclənəcək. Təbii ki, bu, həm də Azərbaycanın regionda öz mövqelərini bir qədər də gücləndirməsinə gətirib çıxaracaq. Odur ki, proqnozlaşdırdığımız proseslər nə qədər tez yaşanarsa, bunun bizə daha böyük faydası olacaq, həm iqtisadi, həm də siyasi anlamda.

**Ülviyyə ŞÜKÜROVA**

# Suriyadan sonra İran rejimi də çökür...

## Molla rejimi gələn il ərzində süquta uğraya bilər

**Suriyadakı hadisələrdən sonra İran rejimi ölkədə oxşar ssenarinin təkrarlanmasından ehtiyat edir. İran rejimi gələn il ərzində süquta uğraya bilər.**

Bunu ABŞ Dövlət Departamentinin keçmiş baş müşaviri Hazem Alqabra ILTV News-da İnsider proqramına müsahibəsində deyib.

Onun fikrincə, Suriyada Bəşər Əsəd rejiminin süqutu qiyama hazır olan İran xalqı üçün bir siqnal olacaq. Alqabra vurğulayıb ki, ölkə daxilində narazılıqlar artmaqdadır və xalqın özü kənardan müdaxilə olmadan dəyişikliklərə doğru addımlar atacaq.



İsrailin Suriyaya təzyiqinin artması fonunda analitik Conatan Spayer İranın nüvə silahı istehsalını sürətləndirə biləcəyindən narahat olduğunu bildirib. “Hizbullah” lideri Həsən Nəsrullahın öldürülməsi, Suriyadakı əsas hədəflərə zərbələr endirilməsi və İranın bölgədəki vəkil qruplarının zəifləməsi rejimin gücünü nümayiş etdirməsi zərurətini yaradır.

Spayer qeyd edib ki, çağırışlara baxmayaraq, İran İraq, Yəmən və Livandakı aktiv etibarlı şəxsləri ilə təhlükə olaraq qalır. O, həmçinin vurğulayıb ki, İsrail və ABŞ İranın mümkün nüvə silahından istifadəsinə hazır olmalı və bu ssenarinin qarşısını almaq üçün tədbirlər görməlidir.

İsrail ordusu Suriyadakı strateji hədəflərə, o cümlədən kimyəvi və ballistik silah anbarlarına, radar stansiyalarına və tədqiqat mərkəzlərinə zərbələr endirməkdə davam edir. Bu əməliyyatlar İranın “Hizbullah” kimi müttəfiqlərinə silah ötürülməsinin qarşısını almaq məqsədi daşıyır. Alqabra qeyd edib ki, Əsəd rejiminin süqutu onların həyata keçirilməsini sürətləndirsə də, bu hücumların bir çoxu əvvəlcədən planlaşdırılıb.

Alqabra həmçinin İsraili Suriya üsyançılarının sülh və sabitlik istəklərini dəstəkləmək üçün onlarla daha fəal əlaqə saxlamağa çağırıb. Onun sözlərinə görə, Suriya yenidənqurma üçün beynəlxalq texniki və humanitar yardım almalıdır.

Bu, ölkənin modernləşdirilməsi və beynəlxalq aləmə qaytarılması istiqamətində bir addım olacaq. Təhlilçi hesab edir ki, İsrail humanitar və sülh təşəbbüslərinə sadiqliyini nümayiş etdirməklə bu səylərdə mühüm rol oynaya bilər.

**Hazırladı: RƏŞAD**

# Suriyada kütləvi məzarlıq aşkarlanıb

## 75 min insanın burada basdırıldığı təxmin edilir



**Suriyada Dəməşq yaxınlığında kütləvi məzarlıq tapılıb. Hurriyyet.az xəbər verir ki, Dəməşq hava limanının arxasındakı Hüseyniyyə bölgəsində yerləşən məzarlıqdan 75 min insanın basdırıldığı iddia edilir.**

İlkin ehtimallara görə, Bəşər Əsədin “ölüm düşərgəsi” kimi bilinən - Sednaya həbsxanasında dözülməz və ağır işgəncələr səbəbindən ölən məhbusların cəsədləri bu ərazidə basdırılıb.

Məlumata görə, Əsəd dönəmindən bu ərazidə gündəlik 400 məhbus basdırılıb.

Qeyd edək ki, noyabrın 27-də Suriyada rejim əleyhinə silahlı qruplaşmalarla Bəşər Əsəd qüvvələri arasında toqquşmalar başlayıb. Qruplar 30 noyabr-7 dekabr tarixləri arasında Hələb, İdlib, Həma və Homs kimi şəhərləri ələ keçiriblər. Dekabrın 7-də paytaxt Dəməşqin tutulması ilə birlikdə Baas Partiyasının 61 illik hakimiyyəti sona çatıb və rejim lideri Bəşər Əsəd paytaxtdan qaçıb.

# Əsədin Britaniyadakı sərvəti ortaya çıxdı

## Pulların rejim qurbanlarına qaytarılması tələb olunur

**Suriyanın keçmiş prezidenti Bəşər Əsədin Londondakı bank hesabında 55 milyon funt-sterlinqdən çox pul var. Bu barədə xarici KİV-lər məlumat yayıb.**




Mənbələrə görə, bu pul Əsəd, ailəsi və müttəfiqlərinin Britaniya banklarındakı 163 milyon funt-sterlinq ümumi aktivlərinin yalnız kiçik bir hissəsidir. 2011-ci ildəki məhkəmə sənədlərində Əsədin Londondakı “HSBC” hesabında təxminən 40 milyon funt sterlinq olduğu müəyyən edilib. Bu vəsaitlər Britaniyanın 2011-ci ildə Suriya Vətəndaş Müharibəsindən əvvəl etirazları yatırtmaq üçün Əsəd rejiminə tətbiq etdiyi sanksiyaların bir hissəsi kimi dondurulub.

Qeyd olunur ki, sanksiyalar çərçivəsində dondurulmuş aktivlər sahibinin mülkiyyətindən çıxarılmadığı üçün istifadə edilə bilməz. Üstəlik, bu hesab illik faiz gəlirləri əldə etdikdən sonra daha da artıb. Britaniya hökuməti həmçinin Əsədin əmisi Rifat Əsədə məxsus Mayfairdə yerləşən 32,8 milyon dollarlıq 6 mərtəbəli malikanənin də üzərinə həbs qoyub.

Məlumata görə, Bəşər Əsəd ümumən 200 ton qızıl və daşınmaz əmlak da daxil olmaqla 12,5 milyard funt sterlinq dəyərində sərvətə sahibdir.

Böyük Britaniyada bu vəsaitlərin Əsəd rejiminin qurbanlarına qaytarılması ilə bağlı çağırışlar olub. İnsan haqları təşkilatları da bu sərvətin Suriyada rejim qurbanlarına qaytarılmasını tələb edir.

Qeyd edək ki, Bəşər Əsəd və ailəsi sığınacaq alaraq hazırda Rusiyanın paytaxtı Moskva şəhərində məskunlaşıb.

# “Tramp Ukraynaya zəmanət verməyəcək”

## Amerikalı ekspert Rayan Menon: “Rusiya Ukraynaya bunun üçün söz verəcək...”



**Tramp çox güman ki, Ukraynaya ABŞ-dən təhlükəsizlik zəmanəti verməyə razı olmayacaq. Bununla bərabər, Kiyev amerikalıların iştirakı olmadan heç bir koalisiyanı etibarlı hesab etməyəcək.**

“Azpolitika” xəbər verir ki, amerikalı müdafiə eksperti Rayan Menon “The New York Times” üçün köşə yazısında belə qeyd edib.

Onun fikrincə, “Tramp Ukraynanı qorumaq üçün heç bir vəd vermədən təkcə müharibəni bitirməyə deyil, həm də Amerikanın bütövlükdə Avropadakı təhlükəsizlik öhdəliklərini azaltmağa çalışır”. Menon həmçinin Kiyevin NATO-ya daxil olmasını çətin hesab edir.

Müəllif qeyd edir ki, ABŞ Çinə qarşı çıxmaq üçün tədricən diqqətini Avropadan Asiya-Sakit okean regionuna yönəldəcək. Beləliklə, Avropa öz müdafiə yükünün böyük hissəsini özü daşımalı və bəlkə də Ukraynanın müdafiəsi üçün əsas məsuliyyəti öz üzərinə götürməli olacaq. Lakin sülhməramlı qoşunların göndərilməsi məsələsində konsensusun olmaması onu göstərir ki, hazırda Avropada Ukrayna ilə bağlı həll yolu yoxdur.

Professor belə qənaətə gəlir ki, müharibənin “ən əldə edilə bilən” nəticəsi Ukraynanın “silahlı neytrallığı” ola bilər. Belə olan halda Rusiya Ukraynaya bir daha hücum etməyəcəyinə söz verəcək, Ukrayna isə NATO üzvlüyündən və öz ərazisində xarici qoşunların və silahların yerləşdirilməsindən imtina edəcək. Bu, Ukraynanı digər variantlarla müqayisədə ”daha həssas vəziyyətə” qoyacaq.

Eyni zamanda, müəllifin fikrincə, Kiyev danışıqlarda Moskvanın Ukrayna Silahlı Qüvvələrinin sayını məhdudlaşdırmaq tələbini rədd edəcək. Avropa ölkələri isə Ukrayna qoşunlarının hazırlığını gücləndirməyə və Ukrayna müdafiə sənayesinə investisiyaları artırmağa məcbur olacaq:

”Ukrayna güclü rəqib olduğunu sübut etdi və onun təcrübəli, döyüş sınaqlarından keçmiş ordusu daha yaxşı təchiz olunarsa, Rusiya onun timsalında daha güclü rəqiblə hesablaşmalı olacaq”.

# "İlk növbədə cəmiyyətdəki sosial problemləri həll etməliyik"

## Həkim-terapevt Məlahət Qədirova: "Yeniyetmə və gənclərimizi narkomaniyadan qorumaq üçün işsizliyi, yoxsulluğu aradan qaldırmaq lazımdır"

"Bütün zərərli vərdişlər insan psixologiyasına gedən yoldan başlayır. Bir insanın iradəsi zəifdirsə, onu nə qədər maarifləndirsən də, xeyri yoxdur. O, öz bildiyi, öz düşüncəsi istiqamətə yönələcək". Bunu Sabunçu rayonundan yerləşən 11 saylı Şəhər Poliklinikasının həkim-terapevti Məlahət Qədirova bildirir.



Psixologiyada insan iradəsinin "özünə nəzarət" demək olduğunu bildirən Məlahət xanım hesab edir ki, ümumiyyətlə, zərərli vərdişlər aludəçilik ailədən başlayır: "Ailənin davranışı iradənin inkişafında müstəsna rola malikdir. Uşaq böyüdükcə ətrafındakı insanları müşahidə edir və davranışlarını onlardan öyrənir. Bu səbəbdən də, özünə nəzarətin aşağı olduğu ailələrin övladlarında iradə zəifliyi olur. Yaşadığımız həyatda insanı idarə edən əsas qüvvə iradədir. Məsələn, bir uşaq dərsə hazırlaşır, lakin bu zaman televiziya kanalında onun çox sevdiyi film nümayiş olunur. Əgər onun özünə nəzarəti güclüdürsə, yenə də dərsləri ilə məşğul olmağa davam edəcək. Bütün pis vərdişlərin qarşısını almaq üçün birinci növbədə özünə nəzarət lazımdır. Ailədə uşaqlara nəzarət güclü olmalıdır".

Məlahət Qədirova deyir ki, bütün sadalananlardan əlavə, yeniyetmə və gənclərimizi narkomaniyadan qorumaq üçün ilk növbədə cəmiyyətdəki sosial problemləri - işsizliyi, yoxsulluğu aradan qaldırmaq lazımdır: "Məktəblərdə müəllim-şagird arasındakı konflikt, ailələrdə uşaqlara qarşı şiddət, valideyn-övlad arasında ziddiyyətlər aradan qaldırılmalıdır. Bunlarla yanaşı, ətraf mühitin təsirləri də yeniyetmə və gəncləri narkotik aludəçiliyinə gətirib çıxara bilən əsas səbəblərdəndir".

Həkim-terapevt bu fikirdədir ki, narkomanlara qarşı təzyiq mexanizmindən istifadə etmək, sərt cəzalar vermək çıxış yolu deyil: "Bir həkim olaraq, hər hansı bir mövzuda cəzaların sərtləşdirilməsinin tərəfdarı deyiləm. İnsan elə bir varlıqdır ki, təzyiqə məruz qaldıqda daha da sərtləşir. Belə hesab edirəm ki, ən başda maarifləndirmə işi durmalıdır. Orta və ali məktəblərdə, televiziya kanallarında bu mövzuda söhbətlər və maarifləndirmə işləri aparılmalıdır. Evdə valideynlər, yaşayış məhəllələrində isə uşaq sahə müvəkkilləri, uşaq və böyük poliklinikalarında işləyən, insanların sağlamlığının keşiyində duran fədakar ailə həkimlərimizin çiyninə böyük yük düşür. Biz həkimlər demək olar ki, hər gün ərazidə oluruq. İnsanlarla görüşürük, çağırışlara gedirik. Dünyanı başına alan, insanı ölümə sürükləyən dilsiz-ağızsız düşmənlə mübarizəyə qalxırıq, "Narkotikə yox deyək!" mövzusunda yeniyetmə və gənclərlə mütəmadi söhbətlər aparırıq. Təkcə narkotikin deyil, digər zərərli vərdişlərin də insan orqanizminə vurduğu zərərlərdən söhbət açırıq. Bu mövzuda təkcə gənclərimizi yox, yaşlı insanları da bacardığımız qədər təlimatlandırırıq".

M.Qədirova təklif edir ki, narkomaniyaya qarşı mübarizə çərçivəsində apteklərin fəaliyyəti də nəzarət altına alınmalıdır: "Birinci növbədə apteklərə nəzarət olunmalıdır. Reseptsiz və həkimin möhürü olmadan narkotik tərkibli dərmanlar və ağrıkəsicilər satılmamalıdır. İradəsi zəif olan bəzi insanlar bədənləri ağrıyanda həkimə deyil, ilk növbədə aptekə üz tutur və ağrıkəsici alıb içir. Bu ağrıkəsicilər effekt vermədikdə isə daha güclü dərman axtarışına çıxırlar. Nəticədə, ətraf mühit amili öz təsirini göstərir.

Narkomaniya bütün bəşəriyyəti düşündürən ən böyük problemlərdən biridir. Təhsil müəssisələrində təbliğat və maarifləndirmə işləri aparılmalıdır. Gənclərə sağlam həyat tərzini aşılamaq üçün müxtəlif mövzular üzrə toplantılar, görüşlər, müzakirələr keçirilməli, bu istiqamətdə müvafiq işlər görülməlidir.

Əlbəttə ki, dərs vəsaitlərinin hazırlanması da bu müstəvidə ən mühüm işlərdən biridir".

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**

# Narkomaniyadan xilas üçün 7 əsas yanaşma!

## Tibb Universitetinin Baş müəllimindən açıqlama

"Narkomaniyanın qarşısını almaq, xüsusilə yeniyetmə və gəncləri bu bəladan qorumaq üçün həm ailələrin, həm də cəmiyyətin birgə səyi lazımdır". Bu barədə saytımıza açıqlama verən Azərbaycan Tibb Universitetinin Baş müəllimi, Biologiya üzrə fəlsəfə elmləri doktoru, "Qadınların İnkişafina və Maarifləndirilməsinə Dəstək" İctimai Birliyinin İdarə Heyətin üzvü Firəngiz Quliyeva bildirib.

**Firəngiz xanım hesab edir ki, cəmiyyətimizdəki narkomaniya probleminin həllində aşağıdakı əsas yanaşmalar təsirli ola bilər:**

**1. Maarifləndirmə və Təhsil**

- Məktəblərdə təhsil proqramları hazırlanmalıdır. Uşaqlara və gənclərə narkotiklərin zərərləri və yaratdığı təhlükələr haqqında erkən yaşlardan məlumat verilməlidir. Məsələn, ilk mərhələdə sağlam həyat tərzinin üstünlükləri izah edilməlidir. Daha sonra narkotiklərin fəsadları haqqında ətraflı məlumat verilməlidir.

- Ailələrin maarifləndirilməsi də mütləqdir. Valideynlər narkotiklərin ilkin əlamətlərini tanımaq və övladları ilə açıq ünsiyyət qurmaq üçün maarifləndirilməlidir.

- Mediada sağlam təbliğat kampaniyalarına üstünlük verilməlidir. Televiziya, sosial media və digər platformalarda narkomaniyanın nəticələri barədə maarifləndirmə işləri aparılmalıdır.



Firəngiz Quliyeva: "ilk mərhələdə sağlam həyat tərzinin üstünlükləri izah edilməlidir..."

**2. Pozitiv alternativlər təqdim etmək**

- İdman və hobbilər: Gənclər boş vaxtlarını səmərəli keçirmək üçün idman, incəsənət, musiqi və digər fəaliyyətlərlə məşğul olmağa həvəsləndirilməlidir. Məsələn, pulsuz idman zalları və ya kurslar təşkil edilə bilər.

- Karyera və təhsil imkanları: Gənclərə özlərini inkişaf etdirmək üçün təhsil və iş imkanları yaradılmalıdır. Gələcəklərinə ümidlə baxan gənclər narkotikdən daha çox uzaq dururlar.

**3. Rol modellərinin təqdim edilməsi**

- Gənclərə uğurlu insanların nümunəsi göstərilməlidir. Məsələn, məşhur idmançılar, elm adamları və ya incəsənət xadimləri onların pozitiv təsirini artırar.

- Narkotikdən qurtulan şəxslərin həyat hekayələri gənclərə çəkindirici təsir göstərə bilər.

**4. Psixoloji dəstək və erkən müdaxilə**

- Psixoloji xidmətlər: Məktəblərdə və cəmiyyət mərkəzlərində gənclərin psixoloji problemlərini həll etmək üçün xidmətlər təşkil edilməlidir.

- Erkən xəbərdarlıq sistemi: Narkotik istifadəsinə meylli olan gəncləri vaxtında müəyyənləşdirərək, onların dəstəklənməsi təmin edilməlidir.

**5. Qanunların gücləndirilməsi**

- Sərt cəzalar: Narkotik satıcılarına qarşı daha sərt cəza tədbirləri tətbiq edilməlidir.

- Nəzarət sistemlərinin gücləndirilməsi: Polis və hüquq- mühafizə orqanları narkotik dövriyyəsinə qarşı müasir texnologiyalardan istifadə etməli, "qaynar nöqtələrdə" xüsusi tədbirlər görməlidir.

**6. Cəmiyyətin iştirakı**

- Qaynar xəttlər: İnsanların anonim şəkildə narkotiklə bağlı məlumat verə biləcəkləri platformalar yaradılmalıdır.

- Könüllü qruplar: Cəmiyyət daxilində könüllü qruplar təşkil edilərək, gənclər üçün maarifləndirici tədbirlər keçirilməlidir.

**7. Mədəni və ənənəvi dəyərlərdən istifadə**

- Ailələrin gücləndirilməsi: Ənənəvi ailə dəyərləri qorunub saxlanılmalı, valideynlər övladları ilə yaxın münasibətdə olmalıdır.

- Mədəniyyət tədbirləri: Gənclərin millimənəvi dəyərlərə marağını artırmaq üçün festivallar, konsertlər və digər tədbirlər təşkil edilməlidir.

**Hazırladı:**
**Fuad BİLƏSUVARLI**

"Bakı Tikinti Quraşdırma" ASC-nin bir qrup səhmdarı - Səfixanov İsrafil Əlipaşa oğlu, Zərbəliyev Fuad İbrahim oğlu, Həsənov Nöfəl Qurban oğlu, Süleymanov Rövşən Süleyman oğlu, Əliyev Yaşar Saşa oğlu, Sadıqov Rəhim Nəsif oğlu, Abbasov Tofiq Əhməd oğlu, Morozov Timofey Vasilyeviç, Şahmaliyev Mahir Fevral oğlu, Bağırov Rəsul Bağır oğlu və Hüseynov Mammed İsrafil oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Azərbaycan Respublikası Dövlət Əmlakının Özəlləşdirilməsinin II Dövlət Proqramına uyğun olaraq Dövlət Əmlak Nazirliyinin 01.09.2000-ci il tarixli, 166 saylı sərancamı ilə "Azərsənayetikinti" Dövlət Şirkətinin Bakı Tikinti Quraşdırma İdarəsinin bazasında "Bakı Tikinti Quraşdırma " ASC yaradıldığını bildirən şikayətçilər yazır ki, bu zaman hər biri cəmiyyətdə müəyyən sayda səhm sahibi olsa da, sonra rəhbərlik tərəfindən qanunsuzluqla üzləşiblər...



# Bir qrup səhmdara qarşı dələduzluq

## "Bakı Tikinti Quraşdırma" ASC-nin səhmdarları rəhbərliyin qanunsuz əməllərindən şikayətçidir



***(Əvvəli qəzetimizin 26 noyabr, 2024-cü il tarixli sayında)***

"Bakı Tikinti Quraşdırma" ASC-nin öz təyinatı üzrə istehsal fəaliyyəti ilə məşğul olmaq imkanı olmasına baxmayaraq, məqsədli şəkildə istehsalat dayndırmışdır. Rəhbərlik cəmiyyətin əksər səhmlərinə sahib olmasından istifadə edərək, ümumi yığıncaqları keçirmir. Daha doğrusu, cəmiyyət yeni ünvana köçürüləndən bu vaxta kimi rəhbərlik ümumi yığıncaq çağırılmamış və səhmdarların bu barədə qanuni tələbinə əməl etməmişdir.

Eyni zamanda qeyd edık ki , Ələsgərov Zaur Zakir oğlu 0,9 ha torpaq sahəsini mənimsəməsinə baxmayaraq, ASC-nin balansında qalmış, 1230 səhmə görə bizə aid olan 500 kv.m torpaq sahəsini də mənimsəmiş və hazırda həmin torpaq sahəsini qeyri-qanuni istifadə edir.

Bundan əlavə, o, səhmdarların məlumatı olmadan, cəmiyyətin Nizamnaməsində dəyişiklik edib. Belə ki, güya, 11.07.2022-ci ildə ümumi yığıncaq keçirmiş və nizamnamədə cəmiyyətin əmlakının 2/3 səs çoxluğu ilə, müəssisənin yenidən təşkili, ləğvi və satılması barədə düzəliş etdirməklə qeydiyyatdan keçirmişdir.

Qeyd edək ki, ƏLəsgərov Zaurun cəmiyyətin 1230 səhmə görə 500 kv.m. sahəsinə heç bir aidiyyatı olmamışdır. O, Orucov Rəfaeldən 0,9 ha torpaq sahəsini də qeyri-qanuni almışdır. Ona, görə hazırda Ələsgərov Zaurun Cəmiyyətin daxili işlərinə qarışmaq səlahiyyəti yoxdur.

Lakin o, Cəmiyyətdə heç bir səlahiyyəti olmadan, güya 12.04.2023-cü ildə ümumi yığıncaq keçirmiş və iclasda iştirak edən şəxslərin - səhmdarların səs çoxluğu ilə müəssisənin ləğv edilməsi barədə qərar qəbul etdirmişdir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 102.4-ci maddəsinin tələbinə əsasən, "Səhmdar cəmiyyətlər öz səhmdarlarına nizamnamə, ona edilən əlavə və dəyişikliklərlə tanış olmaq imkanı yaratmalıdır. Səhmdarın tələbi ilə nizamnamənin surəti ona verilməlidir". Məcəllənin 102.5-ci maddəsində o da aydın göstərilir ki, "Cəmiyyətin nizamnaməsində əlavə və dəyişikliklərin edilməsi qərarı səhmdarların ümumi yığıncağında, səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə qəbul edilir". Lakin bu şəxs gələcəkdə öz çirkin məqsədlərini həyata keçirmək üçün cəmiyyət üzvlərinin iştirakını təmin etmədən, güya, 11.07.2022-ci il tarixində formal iclas keçirmiş, nizamnamədə öz mənafeyinə uyğun düzəliş etdirmiş, bununla səhmdarların mülkiyyət hüquqlarını kobudcasına pozmuşdur.

Eyni zamanda, o, "Bakı Tikinti Quraşdırma" ASC-nin balansında olan mülklərin hamısını və torpaq sahəsini özgəninkiləşdirmiş və bu barədə cəmiyyətin səhmdarlarına heç bir məlumat verməmiş və hər hansı bir ümumi yığıncaq keçirməmişdir. Halbuki, qeyd etdiyimiz kimi, 11.07.2022-ci il tarixində keçirilmiş iclas qeyri-qanuni olmuşdur. Bunun bariz nümunəsi kimi onu göstərə bilərik ki, iclasın protokolunda adları qeyd olunan şəxslərin çoxu "ümumi yığıncaqda" iştirak etməmiş və protokolda imza etməmişdir.

İkincisi, ASC-nin ləğv edilməsi barədə 12.04.2023-cü ildə keçirilmiş ümumi yığıncaqda səhmdarların razılığı olmadan qəbul edilmiş qərarla əlaqədar olaraq da bildiririk ki, göstərilən tarixdə cəmiyyətin iclası qanunvericilin tələblərinə uyğun olmadan keçirilmişdir. Çünki cəmiyyət ümumi yığıncağının keçirilməsi üçün yenə də səhmdarların tam iştirakı təmin olunmamışdır. Üstəlik, cəmiyyətin ləğvi ilə əlaqədar Təftiş Komissiyasının əsaslandırılmış rəyləri bizə təqdim edilməmiş və cəmiyyətin ləğvi barədə hər hansı bir formada araşdırma aparılmamışdır. Həmçinin, əksər səhmlərin sahibi ona məxsus səhmlərin satılması üçün digər səhmdarlara öz paylarını başqa şəxslərə satılması barədə heç bir hesabat təqdim edilməmişdir. Hansı ki, ASC-nin səhmdarları, müəssisədən aralanmaq istəyirsə, o zaman öz səhmlərini ilk növbədə cəmiyyətin digər səhmdarlarına təklif etməlidir.

Qeyd edək ki, biz səhmdarlar ilkin olaraq Cəmiyyətin bütün əmlaklarının, o cümlədən torpaq sahəsinin səhmdarı olmuşuq. Cəmiyyətin əmlakı səhmdarlar arasında bölünməmşdir. Lakin cavabdeh cəmiyyətin səhmdarlara heç bir məlumat vermədən cəmiyyətin torpaq sahəsinin 0,90 ha hissəsini sataraq mənimsəmişdir. Həmin əmlakın satışından səhmdarlara heç bir ödəniş etməmişdir. Hazırda Cəmiyyətin əsas səhmlərinin sahibinin cəmiyyətin əmlakına hər hansı bir formada tələb hüququ olmadığı halda, qanusuzluq edərək ümumi əmlakdan bizim payımıza düşən hissənin çoxunu mənimişdir.

Nəzərə alınmalıdır ki , səhmdarı olduğumuz "Bakı Tikinti Quraşdırma" ASC daimi fəaliyyət göstərmiş və gəlirlə işləmişdir. Lakin rəhbərlik cəmiyyəti süni sürətdə iflasa aparmış və vergi orqanlarına cəmiyyətin güya fəaliyyət göstərməməsi barədə saxta hesabatlar vermişdir. Cəmiyyətin uzun müddət fəaliyyət göstərdiyi müddətdə bir dəfə də olsun rəhbərlik müəssisənin maliyyə vəziyyətləri ilə, müəssisədə keçirilmiş təftiş və audit yoxlamaları ilə tanış etməmişdir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 106-1 -ci maddəsinin tələblərinə əsasən, cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş qadadad cəmiyyətin idarəetmə və icra orqanlarını seçmək, cəmiyyətin illik fəaliyyəti barədə hesabatlarla tanış olmaq və.s. hüquqlarımızın olmasına baxmayaraq, 20-ildən çox müddətdə hüquqlarımızdan istifadə etməyimizə imkan verilməmişdir". Bütün bunlara əsasən, sahibkarlar hesab edir ki, Ələsgərov Zaur Zakir oğlunu adına aparılmış reyestr qeydi və verilmiş çıxarış ləğv edilməlidir.

**Hazırladı: J.FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# "Tolerantlıq xalqımızın fitrətdən gələn xüsusiyyətlərindəndir"

## İlahiyyatçı Tural İrfan: "Bu gün heç bir müsəlman və Qərb ölkəsində Azərbaycandakı dini, milli tolerantlıq yoxdur"

**İslamda sünni-şiə təriqətlərinin yaranma tarixi elə dinimizin yaranmasının ilk dövrlərində meydana gəlib. Sünnilik və şiəlik İslamda ən böyük dini cərəyanlardan hesab edilir. Hal-hazırda dünya müsəlmanlarının təxminən 85%-ni sünnilər, 15%-ni isə şiələr təşkil edir.**

VII əsrin ikinci yarısında Xəlifə Əlinin idarəçiliyi sona çatdıqdan sonra Ərəb xəlifəliyində növbəti xəlifənin kim olacağı ilə bağlı mübahisələr qızışmağa başlamışdı. Məsələ onda idi ki, Əli Məhəmməd peyğəmbərin kürəkəni idi və müsəlmanların bir hissəsi hesab edirdi ki, hakimiyyət onun nəslinə keçməlidir. Onlar "şiə"lər adlanırdı. "Şiə" - ərəbcədən tərcümədə - "Əli hakimiyyəti" mənasındadır.

Müsəlmanların digər bir hissəsi isə bunun tam əleyhinə idilər, hakimiyyətə Məhəmmədin nəslindən olan digər birisinin gəlməsini istəyirdilər və bunu Qurandan sonra ikinci olan "sünnə" (şəriət qanunları) ilə əlaqələndirirdilər. Bu səbəbdən də onları "sünni"lər adlandırmışlar.

Azərbaycan çox az sayda olan İslam ölkələrindən biridir ki, orada bütün dinə məxsus insanların hüquqları bərabər şəkildə qorunur. Dini, milli tolerantlıq, millətlər arası münasibətlər arzuolunan səviyyədədir.

Çox təəssüf ki, bəzi qonşularımız tərəfindən ölkəmizin dindar kəsimini məzhəblərə bölmək cəhdləri var. Hətta kənar təsirlərə düşən elə vətəndaşlarımız da var ki, sünniləri "düşmən" kimi təqdim etməyə, ölkədə dini bölücülük yaratmağa çalışırlar. Bütün bunlarla bağlı "Hürriyyət"ə danışan ilahiyyatçı Tural İrfan deyir ki, ümumiyyətlə dinlər yer üzündə insanları ixtilafdan, ayrıseçkilikdən qorumaq üçün nazil edilib:

"İslam dini də bəşəriyyəti xurafatdan, yanlış inanclardan, bütpərəstlikdən qorumaq üçün gəlib. Quranda mənəvi dəyərlər, əxlaq normaları, tolerantlıq əsas prioritet təşkil edən prinsiplərdəndir. Quranın bir neçə yerində müsəlmanların parçalanması, firqələrə bölünməsi qadağan edilir. Buna baxmayaraq, tarixi proseslər zəminində müsəlmanlar da parçalanıb, fərqli məzhəb və cərəyanlara ayrılıblar.

Burada ən böyük rolu keçmiş Sasani imperiyasının xəlifə Ömər tərəfindən fəth edilməsi oynayıb. Hətta sonralar xəlifə deyirmiş ki, kaş farslar ilə aramızda alovdan sərhəd olaydı, o tərəfə üzümüzü çerirməyəydik. Sasanilər məğlub edilib əhalinin müsəlman edilməsini həzm edə bilmədilər, əvvəlcə xəlifəni terror edib öldürdülər və ideoloji xətt yaradıb İslamı içindən məhv etməyi planlaşdırdılar. Nəticədə üzdə müsəlman kimi görünərək milliyyətçiliyə, gizliliyə əsaslanan cərəyanların yaranmasına rəvac verdilər. Nəticədə İslam xəlifələri öldürməyə başladı, hətta İmam Əli bin Əbu Talib də terror edildi.

Sonralar Sasani qalıqları Bağdadı tutub Büveyhilər rejimi qurdular. Əvvəllər fiqhi, elmi cəhətdən cüzi fərqlə bölünmüş müsəlmanları ideoloji, siyasi cəhətdən də böldülər. Fərqli bayramlar, fərqli matəm günləri, fərqli ibadətlər elan etdilər. Dini ayrıseçkilik qaydalarını dövlət siyasətinə çevirdilər. Sonralar Səlcuqlu hökmdarı Toğrul bəy tərəfindən bu rejim dağıdılsa da, öz təsirlərini qoydu.

İndiki halda da İran əsasən dünya müsəlmanlarının təfriqəyə çəkilməsində, sünni və şiə olaraq üz-üzə qoyulmasında böyük rol oynayır. Ölkəmizə də təsirləri yan keçmir. Ekstremist, radikal qruplar təhsil adı ilə ölkəsində yetişdirib bütün dünyaya yayır, həmçinin ölkəmizə də göndərir. Bu, eynən tarixdə iz buraxmış Ələmut Həşşaşilərinin metodudur ki, indi də din pərdəsi arxasından ixrac edilir".

İlahiyyatçı qeyd edir ki, araşdırmalara görə müsəlmanlar 600-dən artıq dini firqəyə, məzhəbə, təriqətə, cərəyana bölünüblər: "Bunların bəziləri tarix səhnəsindən silinib. Bu gün əsasən iki böyük firqə: sünnilik və şiəlik daha qabarıq özünü göstərir. Əvvəllər təkcə İslam hökmlərinə, şəriətə qaydalarına, bəzi əqidə problemlərinə əsaslanan təbii elmi ixtilaflar vardısa, sonralar bu ixtilaflar maraqlı, məkrli xarici düşmənlər tərəfindən siyasi, ideoloji problemə çevrildi.

Ümumiyyətlə, İslam dininə görə məzhəbçilik qadağandır. Bu, Quranda haram edilib. Bu gün İslam aləmini zəiflədən, geridə qoyan, inkişafdan saxlayan amillərdən biri, bəlkə də birincisi məzhəbçilikdir. Ölkəmizdə müxtəlif İslam məzhəblərinin və dinlərin mənsubları tarixən yaşayıb və bu gün də yaşayır. Tolerantlıq xalqımızın fitrətdən gələn xüsusiyyətlərindəndir. Bu gün heç bir müsəlman və Qərb ölkəsində Azərbaycandakı dini, milli tolerantlıq yoxdur. Hamısı bizdən nümunə götürür və bunu etiraf da edirlər. Bu dini zəminin sağlam şəkildə inkişaf etməsində dövlət siyasətinin rolu böyükdür. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu yolda çox aktiv fəaliyyət göstərir. Ölkəmizdə sadəcə məkrli xarici qüvvələr din pərdəsi altında öz çirkin siyasətlərini, təxribatları icra edə bilmədikdə müxtəlif yanlış fikirlər səsləndirirlər ki, guya Azərbaycanda dini azadlıq məhduddur. Bu, tamamilə iftiradır. Azərbaycanda erməni kilsəsi tam toxunulmaz vəziyyətdə, içində minlərlə kitab olduğu halda saxlanılır. Bütün ibadət yerləri bərpa olunur, yenidən tikilir. Bütün ənənəvi din və konfederasiyaların mənsubları tam azad şəkildə, bərabərhüquqlu vətəndaş olaraq fəaliyyət göstərirlər.

Bəzi irançı qüvvələr ölkəmizdə sabitliyi pozmaq, dövlət əleyhinə təxribat yaratmaq üçün radikal qruplar, terrorçu dəstələr hazırlayıb maliyyələşdirirlər ki, bunun da qarşısı aidiyyəti dövlət qurumları tərəfindən alınır. Bu təsirlərə düşüb din adı ilə terrora, təxribata əli bulaşmış istənilən şəxs dərhal zərərsizləşdirilməlidir. Bunu Quranda Allah özü əmr edir. Hansısa terrorçu, cinayətkar özünü hansısa dinə mənsub hesab edərək inancını özünə qalxan edirsə, bu, o demək deyil ki, həmin dinə, inanca qarşı basqı var. Cinayət edən, dövlətə qarşı gələn şəxs istər xristian olsun, istər yəhudi, istər müsəlman, istər sünni, istərsə də şiə, mütləq qanun qarşısında cavab verməlidir".

T.İrfan vurğulayır ki, insanları məzhəblərə bölmək, onları ayırmaq əsla doğru deyil, bütün dinlər bunu qadağan edir: "Dinlər məhəbbəti, vəhdəti, dostluğu tərənnüm edir. Dinlərin əsl mahiyyəti budur. Onu təhrif edib məzhəbçilik salmaq dinə əks getməkdir. Din üçün ən böyük təhlükə dinin əksinə açıq mövqe tutanlar deyil, dindar cildinə girən, özünü dinə mənsubmuş kimi təqdim edən terrorçu xislətli olanlardır. Məzhəbçiliyi ölkəmizdə əsasən İran yayırdı. Xalqı sünni və şiə ayırımına məruz qoyurdu, ölkəsində təlim keçib içimizə yolladığı yüzlərlə agenti vasitəsi ilə. Hətta xalqın bir çox ənənəvi dəyərlərinə əl qatmışdılar. Məzhəbçilik meyxanalarda, mahnılarda, toylarda, yaslarda təbliğ olunurdu. Son zamanlar bunun qarşı qismən alınsa da yenə də məzhəbçi din xadimləri fəaliyyət göstərir.

Konstitusiyamızda da milli, dini, irqi ayrı-seçkilik qanunla qadağandır. Quranda da qadağandır. Dinlərin mənsublarını, məzhəbləri üz-üzə qoymaq, fərqləndirmək, aralarında ixtilaf yaratmaq həm dinimizə, həm də qanunlarımıza görə qadağandır. Sünni də insandır, şiə də insandır. Hər ikisi də müsəlmandır. Yaxud xristian, yəhudi də Quranda Kitab Əhli sayılıb. Onların yeməkləri müsəlmanlara, müsəlmanların da yeməkləri onlara halaldır. Müsəlman yəhudi və xristian ilə tam şəkildə evlənə, dost ola, iş görə bilər. Bunu Quran təsdiq edir. Belə olduğu halda, insanların arasına nifaq salmaq məkr və fitnədən başqa bir şey deyil.

Quranda Allah öncə bütün insanlığa xitab edir. Tolerantlıq, vəhdət, məhəbbət dinin əslidir.

İmam Cəfər əs Sadiqdən belə bir məşhur söz nəql edilir: "Din yalnız məhəbbətdən ibarətdir!""



"Ölkəmizdı erməni kilsəsi belə, tam toxunulmaz vəziyyətdə, içində minlərlə kitab olduğu halda saxlanılır"

**Aynurə MUSTAFAYEVA**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur**

# Populizmin sonu nə ilə nəticələnir?



**Populizm hələ ibtidai-icma dövrünün son mərhələlərində meydana gəlib, məhdud çərçivə və miqyasda mövcud olsa da, dövlət yarandıqdan sonra populizmin tətbiqi miqyası və çərçivəsi sürətlə genişlənməyə başlamışdır. Çünki dövlət yarandıqdan sonra onun idarə edilməsində, xüsusilə kütləni hər bir dövlətin məzmunu, mahiyyəti və formasına uyğun düşüncə, mənəviyyat, əxlaq çərçivəsində saxlamaq üçün geniş istifadə edilən vasitələrdən biridir. Həm də dünya əhalisinin günümüzdə səkkiz milyard nəfər, dövlətlərin sayının isə iki yüzdən çox olduğu bir vaxtda, populizm dünyada hər gün yüz milyard dəfələrlə təkrar olunan bir reallığa çevrilmişdir. Bəs, əslində populizm anlayışının mahiyyəti nədir? Bu gün cəmiyyətdə populizm anlayışını kütlənin hər hansı hadisə, proses və s. cəmiyyət üzvlərinin hamısının başa düşə biləcəyi sadə, bu gün çox işlənən terminlə desək populyar formada izah, şərh edilməsi kimi dəyərləndirilir.**

Əslində isə populizm hər hansı bir məsələnin çoxsaylı, bəzən də ziddiyyətli, əksliklərin vəhdətindən ibarət olan məzmun elementlərinin, xüsusilə bu elementləri yaradan səbəbləri, amilləri dilə gətirmədən, məsələnin forma etibarilə konkret məqsədə uyğun gələn elementlərinin məhdud çərçivədə, başqa məzmun elementlərindən təcrid olunmuş halda səthi izah, şərh edilməsidir. İstənilən məsələnin məzmun elementlərinə və onun digər məsələlər ilə əlaqələrinə bələd olmadığından yüksək şüura deyil, ictimai şüur səviyyəsinə malik olan kütləni bu üsulla əsil mahiyyəti yalan olan bir fikrə inandırmaqla, kütləni öz məqsədinə uyğun istiqamətə səfərbər etmək mümkündür. Populizmin çox geniş yayılmasının əsas, real səbəbi də budur. Başqa sözlə desək, POPULİZM dinləyicinin zehnini reallıqdan ayırıb, onu saxta illüziya ilə pərdələmək vasitəsidir.

Z.Freyd yazır ki, - "Kütlələr heç vaxt həqiqəti bilmirlər, onlar ancaq illüziyaları tələb edirlər, çünki illüziyasız yaşaya bilmirlər".

Bu da ondan irəli gəlir ki, insanların mütləq əksəriyyəti (kütlə) reallıqları dərk etmək üçün zəruri olan bilik, şüur səviyyəsinə malik olmur. Bu bilik və şüura malik olanların da çoxunda reallıqlara müqavimət göstərmək üçün zəruri olan inzibati, iqtisadi, texniki, təşkilati, fiziki, mənəvi imkanları və ya maraqları olmur.

Populizmin müxtəlif sahələrdə tətbiqinin reallıqları, həqiqəti necə və nə dərəcədə təhrif edə bilmək qabiliyyətini, təhrif etdiyini oxucunun əyani olaraq dərk edərək, başa düşməsi üçün ölkə əhalisinin daim bilavasitə qarşılıqlı ünsiyyətdə, əlaqədə olub, onun fəsadlarına məruz qalsa da, onun real səbəblərini, bu səbəbləri yaradan amilləri və mexanizmləri bilmədiyindən populizmin toruna asanlıqla düşərək çarəsiz durumda qalan insanlara ölkədə bir neçə özəl sahədən populizmin tətbiqi və onun nəticələrini izah etməyə çalışacağam.

SSRİ dağıldıqda, başqa milli respublikalar ilə birlikdə Azərbaycan da, şərti də olsa müstəqillik qazanandan sonra bir sıra əsas iqtisdai-ictimai məsələlərlə yanaşı, milli kimliyimizi müəyyən edən dilimizin hüquqi statusu, adı tətbiq çərçivəsi, tədrisi, təbliği və s. ortaya çıxdı. Bir medalın ayrılmaz iki üzü olan dilimizin və millətimizin adı bir sıra siyasi səbəblər üzündən "eyniləşdirildi", Belə ki, 1936-cı ildə SSRİ-nin mütləq hakimi Stalinin Türkləri bir-birinə və özlərinə yadlaşdırmaq üçün dilimizi Azərbaycan dili, millətimizi isə azərbaycanlı adlandırdığı kimi saxlanılsa da, bundan başqa məqsədlərdə daşımasına baxmayaraq, inkişaf etmiş ölkələrin, eləcə də Türk dünyasının lokomotivi olan Türkiyədə olduğu kimi, latın əlifbasına keçməyimiz bu sahədə atılan önəmli bir addım oldu. "Azərbaycan dili" termini saxlanılsa da məzmun və mahiyyəti Türk dili olan dilimizə ölkənin vahid dövlət dili statusu verilməklə, Türk milli ərazisinin bir parçası olan Azərbaycan ərazisində Türk dövlətinin mövcudluğunu həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə hüquqi cəhətdən rəsmən tanıtmış oldu.

Lakin dünyada daim, fasiləsiz olaraq gedib, günümüzdə xüsusilə sürətli elmi, texniki inkişaf proseslərinin gedişində daha da intensivləşən qloballaşma şəraitində hər hansı bir dilin həm zənginlik, həm tətbiq sahələri, eləcə də bu dilin daşıyıcılarının say çoxluğu baxımından inkişaf etməməsi, nəticə etibarilə həmin dili və daşıyıcısı olduğu milləti dilinin zənginliyi, tətbiq sahəsi, eləcə də onun daşıyıcılarının say baxımından zəngin və nəhəng olan dil və millətlərin içərisində əriyərək məhv olur. Ən yaxşı halda isə, bu günə çoxlu sayda mövcud olub, kiçik bir ərazidə çox məhdud sayda insan arasında primitiv məişət səviyyəsində işlənərək, əslində muzey eksponatı durumuna düşməyə məhkum olur.

SSRİ yarandığı gündən 1959-cu ilədək Azərbaycanda Azərbycan Türkcəsinin orta, orta ixtisas, hətta ali təhsil səviyyəsində tədris edilməsinə baxmayaraq, respublikada onun rəsmi statusu olmaması və elm, istehsalat, xüsusilə idarəçilikdə tətbiq miqyasının çox məhdud səviyyədə olması Azərbaycanda tarixən qısa bir zamanda Türk dilinin, deməli Türk milli kimliyinin məhvi ilə nəticələnmiş olacaqdı.

1959-cu ildə o zaman Azərbaycan SSR-nin Ali Sovetinin sədri olan, xalq yazıçısı Mirzə İbrahimovun təşəbbüsü və həmin dövrdə Azərbaycan SSR KP MK-nın birinci katibi olmuş akademik İmam Mustafayevin bu dövrün acı reallığı olan güllələnmə, Sibirin şaxtalı, sərt zindan və sürgün yerlərində ölüm təhlükəsindən qorxub-çəkinmədən Kreml qarşısında cəsarətlə Azərbaycan dilinə Azərbaycan Respublikası çərçivəsində ikinci dövlət dili statusu verməklə, onun tətbiq sahəsinin genişləndirilməsinin zəruri olduğunu irəli sürərək, buna nail ola bildilər. Dilimizin bu günkü miqyas və durumda gəlib bizə çatması, böyük hesbala, bir çox dərəcədə bu iki cəsur və vətənpərvər insanın millətimiz qarşısında çox dəyərli xidmətinin nəicəsidir.

Son 20 il ərzində Azərbaycanda rus dilli təhsil məktəblərinin sayının SSRİ-də olduğu vaxtdan da dəfələrlə çox olması cəmiyyətimizdə, xüsusilə də, milli mövcudluğumuz barədə düşünən millətsevər vətənpərvərlər arasında haqlı narahatlıq doğurub. Dilçi alimlərimiz ara-sıra bu problemi qabardaraq ictimai müzakirə mövzusuna çevirmək istəsə də, məsələnin yaranma səbəbləri, onun aradan qaldırılması üçün hansı kompleks tədbirlərin həyata keçirilməsinin zəruri olduğu barədə bir kəlmə demədən, ən yaxşı halda isə bu barədə həyəcan siqnalı verərək hökuməti inzibati tədbirlər görməyə çağırması obyektiv olaraq nəticəsiz qalmaqda davam edir. Son onillikdə beynəlxalq müsəvidə ingilis dilinin liderliyində elm, istehsal, xidmət sahələrində özünə geniş yer tutmuş alman, fransız dillərində orta, ali təhsil məktəblərinin, bu dillərin öyrədilməsi üzrə kursların, habelə fərdi repetitorların meydana çıxması və getdikcə artması təbii və obyektiv olaraq, dilimizin və milli kimliyimizin gələcək taleyi barədə narahatlığı çoxaltmaqdadır.



Bu gün rusdilli məktəblərin ölkə ərazisində Rusiyanın ölkəyə müxtəlif yönlərdən müdaxilə edə bilməsini asanlaşdıran, yəni milli şüuru zəiflədilərək xeyli dərəcədə öz təhsil sistemimizin assimilyasiya edilərək, istənilən halda milli mənafelərimizin tapdalanmasına liberal mövqe sərgiləyə biləcək bir kontingent, "rusbaşların" yetişdirilməsi milli azadlığımız və mövcudluğumuzun təhlükəsizliyi üçün yetərincə təhlükəli amildir. Məsələnin maraqlı cəhəti budur ki, rusdilli məktəblərin bağlanmasını tələb edənlər çox vaxt ölkədə ingilis, fransız, alman və s. dilləri tədris edən mərkəzlərin sürətlə çoxalmasına nəinki susqun qalır, hətta bunu dünya millətləri və ölkələrinə inteqrasiya, inkişaf amili olaraq dəyrələndirirlər. Hansı ki, bu təhsil mərkəzləri də "ingilisbaşlar", "fransızbaşlar" və s. yetişdirməklə, eynilə rusdilli təhsil məktəblərinin gördüyü işi, yerinə yetirdiyi funksiyanı yerinə yetirirlər.

*(Ardı var)*

**Şapur QASİMİ**

**Hidayət RÜSTƏMBƏYLİ**

*Hüquqşünas, Azərbaycan Jurnalistlər Birliyinin üzü*



# Türk dilində ibadət edən Roma İmperatoru

II YAZI

Xaç-Krest-Çarmıx ölüm cəzasına, edama məhkum olanlara tətbiq edilirdi. Bu ölüm qurğusu Roma İmperiyası dönəmində, Spartakın başçılığı ilə başlamış qullar üsyanını yatırmaq məqsədilə tətbiq olunmuşdur. Üsyançı qullar Te (C) hərfi görkəmli çarmıxda çarmıxlanmışlar. İsa peyğəmbərin şagirdlərindən biri Iuda Iskaryot peyğəmbəri 33 gümüş pul qarşılığında düşmən tərəfə satır. Roma Imperiyasının Nazaret şəhərinin legioneri vali Ponti Pilatin xidməti dövründə, peyğəmbəri böyük işgəncələrə məruz qoyaraq, həmin ölüm qurğusunda çarmıxlayırlar...

Aparılmış tarixi araşdırmalar, tədqiqatlar, verilmiş mütəxəssis rəylərindən aydın olur ki, dünya miqyası üzrə, qüllələrini Çərxi-Fələk + Xoşbəxtlik Rəmzi + Fortuna bəzəyən Allah evləri - məbədlər antik şumerlərə, onların nəvələri Azərbaycan türklərinə, albanlara - bütün Türk dünyasına məxsusdur. Dahi şəxsiyyət, elm ustadı, dünya miqyaslı səyyah Tur Heyerdalın "Avropa haradan başlayır?" kitabında cavab olaraq, özü yazır: "İngilislər deyirlər ki, dünya Big Bendən, fransızlar deyirlər ki, Luvr muzeyindən başlayır, italyanlar isə köhnə dünyanın müqəddəs Pyotr monastrından başladığını iddia edirlər". Bunlara rəğmən alimin öz şəxsi fikirləri vardır. Tur Heyerdal qamışdan inşa olunmuş "Kon-Tik" gəmiləri Sakit Okeandan sonra, Atlantik Okeanında üzərkən onların üzərində "RA" emblemini görən kimi alimdə belə bir fikir meydana gəldi ki, həmin gəmi Azərbaycanın açıq səma altında yerləşmiş Qobustan muzeyində qayalarda həkk olunmuş gəmidə insan oğlunun şəkli ilə eynidir və bu şəklin gəmilərdə də təsviri onda böyük sevgi, maraq yaratmışdırğ Qobustan qayalarında aşkar etdiyi gəmi şəkli onun doğma "Ra" gəmsiylə eynilik təşkil edirdi. Arxeoloqlar, yerli və dünya miqyaslı alimlər gəminin yaşının minilliklər olduğunu hesabladılar və belə qənaətə gəldilər ki, Azərbaycan dünya üzrə gəmiçiliyin təməlini qoyan antik ölkədir. Bütün bunlarla yanaşı, dünya elm xadimi gözləmədən bu qərara gəldi ki, Avropa başlanğıcını Xəzər dənizinin cənub qərbindən Azərbaycandan götürmüşdür. Bədbəxtçilik ondan ibarətdir ki, Avropanın dayaqları "lax dayaqlar" üstündə qurulmuşdur.

Tur Heyerdalın uzun illərdən bəri apardığı elmi araşdırmalarına əsasən, dünyada məkanından asılı olmayaraq qüllələrini Çərxi-Fələk + xoşbəxtlik rəmzi + Fortuna bəzəyən Allah evləri, məbədlər türk dünyasına məxsusdurlar. Bəla burdadır ki, adını "alim" qoyanlar və digərləri Çərxi Fələklə + Çarmıxı (yəni mıx-mismar) qarışdırırlar. Ölümə məhkum olunanları forma baxımından yalnız ölüm qurğusunda - Çarmıxda edam etmək mümkündür.

Eyni zamanda kitabında Tur Heyerdal - Tanrının - Tenqri xanın adını çəkərək, onun Göyün oğlu olduğunu iddia edir, türk oğlu imperator Atillanın adını çəkir, onun Roma Imperiyasını diz çökdürməsindən danışır. Roma imperiyasının sonuncu imperatoru türk Atillanın oğlu Romul Avqustul olmuşdur. Yer kürəsinə Allaha inamı, antik şumerlərin nəvələri türklər gətirmişdir. Altay kitablarında yazıldığı kimi, imperator ibadəti - duanı türk dilində oxuyurdu.

İstanbulda (Konstantinopol) 1-ci Allah evini də türk Memar Sinan inşa etmişdir. AyaSofiya məscidinin xristianlıqla heç bir əlaqəsi yoxdur. Çünki Allah evində gördüyümüz Çərxi-Fələk, yəni "+" dörd tərəfi bərabər, üstəgəl, plyus işarəsi şəklində olan Xoşbəxtlik Rəmzi + Fortunadır. Artıq qeyd etdiyim kimi, Çərxi-Fələyin hər tərəfi bərabər olur.

Çərxi-Fələklə Çarmıxı qarışdıranlardan ricam budur: Şair Mirzə Ələkbər Sabir Tahirzadənin, "Çərxi Fələk" şeirini oxuyun:

Bu Çərxi Fələk tərsinə dövran edir indi
Fəhlə də özünü daxilən insan edir indig

Dünyanın bütün guşələrinə, məkanlarına - Asiya, Avropa, ABŞ, Kanada, Ərəb dünyası (Misir Fironları daxil olmaqla), Anadolu-Kappadokiya və s. Türkün əraziləri olmuşdur. Bütün bunlarla yanaşı, ABŞ-ın elm xadimi, tarixi araşdırmaçı professor Gene D. Matlok belə bir kitab yazmışdır: "Ey Dünya İnsanları, Hepiniz Türksünüz". Matlok, "bir uyqarlığın sırları dünyanı nasıl değiştirebilir", sualına cavab axtararaq bildirir ki, amerikalıların "qızıl dərililər, hindular" dedikləri bu insanlar türkdürlər, özlər də Tengriyə ibadət və sitayiş edirlər. Matlok bu qənaətə gəlmişdir ki, dünya fəlakəti, nuhun gəmisi, Böyük Tufanın mənşəyi türklərə söykənir.

Roma imperatorluğundan əvvəl burada yaşayan və Romanın qurucusu sayılan, yerli xalq olan etrusklar da türklərdir. Bütün bunlarla yanaşı, mövcud məqalənin əsas mövzusu Çərxi-Fələklə Fortunanın Çarmıxla fərqini oxucularıma anlatmaqdır ki, bunları bir-birilə qarışdırmasınlar, ziddiyyət toxumu səpməsinlər!

İlk öncə də Azərbaycan xalqının beynini zəhərləyib, bizim xristian olmağımızı iddia edənlərə yazıqlar olsun. Bu bədbəxtlər, Çərxi-Fələk + Fartuna ilə, İsus Xristosun ölüm qurğusu - Te hərfi çəklində C Çarmıxı ayırd edə bilmir, yaxud istəmir?

Məqaləmin doğru-dürüstlüyünü təsdiqləyərək sübutları, dəlilləri təsdiqləyən materialları əlavə edirəm ki, İsus Xristos çarmıxlanandan 200 il keçsə də şübhələrin məngənəsindən qurtula bilməyən oxucularım və digərləri anlasınlar.

*(Ardı var)*



**Allahverdi Eminov**

## Eldar Əhmədov (Qarqarçay) - 70

# Bir kitab şeir...



**1.**

Mən əyalətdə yaşayan və işləyən istedadlı yaradıcı insanlarla ya əyani, ya da qiyabi tanışlığımdan həmişə qürurlanmışam. Bu şəxslər “şəhərli” də, “bakılı” da ola bilərdilər, lakin doğulduğu kənd, oba onları çəkib torpağa bağlamışdır. Belə ya-radıcılardan Ramiz Qusarçaylı, Elşad Səfərli, Şəkər Aslan, Etibar Əbilov, Ruhən-giz Əşrəfqızı, Tofiq Hüseynli, Mətləb Ağa... yaddaşımda yaşamaqdadır. Yeri gəl-miş-kən müxtəlif illərdə onların yaradıcılığı haqqında hətta monoqrafiyalar nəşr etdirmişəm. Ona görə ki, “gözdən uzaqdılar”, ona görə ki, istedadlıdırlar, qələm sa-hibləridirlər. Ona görə ki, ədəbiyyata necə “vəsiqə” alıblarsa, ədəbiyyata etibarlarını itirməmişlər. Ona görə ki, işlərinə laqeyd qalmamışlar, daxili təkan - ilham, ehtiras onları yazı masasına çəkmişdir.

Xatırlayıram: ötən əsrin 80-90-cı illərində bir imza mənimlə “görüşdü”, Eldar Əhmədov (Qarqarçay), “Ömrün hekayələr kitabı”, az sonra “Xatırladım səni” kitabları diqqətimi cəlb elədi. Duydum ki, bu gəncin ürəyi doludur, poeziyaya kök-lənibdir, poetik ovqatı səngiyəndə nəsrə keçir, mənsur hekayələr qələmə alır, ar-xada yaşanan illərinin həzin sızıltısı çırpınır. Lakin Eldarla görüşmək imkanım ol-madığına yalnız təəssüflənirdim. Günlərin birində istedadlı mərhum şair Ənvər Əhməddən söhbət əsnasında soruşdum ki, Ağcabədidə yaşayan bir şairi nişan ver-səm tanıyarsanmı? O, gülümsündü, cavabımı intizarla gözlədi. - Eldar Qarqarçayı deyirəm. Maraqlı yazardır, iki kitabını oxumuşam, güclü hissiyyatı var:

**Nələr çəkər kövrək könlüm,**
**Kövrək könlüm, ipək könlüm,**
**Tənha qalıb çiçək könlüm,**
**Bir yadına salan yoxdu.**

**Səni qəmnən hey yüklədim,**
**Səni sıxdım, çox təklədim**
**Sən sinəmdə iməklədin,**
**Niyə könlün alan yoxdur?**

Misraları dinləyən Ənvər Əhməd azca ayağa qalxdı, qolumdan tutdu, saçına əl çəkdi, mənə elə gəldi gözləri doldu, handan üzünü mənə çevirdi, şeirin son misralarını qoy mən deyim:

**Söylə, ürək bəs neyləsin?**
**Dərd - sərini kimə desin?**
**Əsir içdə əsim-əsim,**
**Bir havasın çalan yoxdu...**

Allahverdi, - astadan dilləndi. - Eldar mənim qardaşım oğlumdur, Ağcabə-di-də yaşayır, ixtisasca su mühəndisidir. Məni uzaqlara apardın. Dünyasını dəyişən qardaşlarım Elbursu, Əbülfəti xatırladım. Yaradıcılıq odu biz nəsildə əzəldəndir. Qardaşlarımı yaxşı tanıyırsan. Elbursla, Əbülfətlə dostluq eləmişəm. Onlar da iste-dadlı idilər. Elburs “Elm” nəşriyyatının baş redaktoru işləyirdi. - Ənvər Əhməd gülümsündü:

- Səni bir gün Ağcabədiyə aparacağam, Eldarla tanış olarsan, canlara dəyən oğlandır.

- Bu günlərdə təzə kitabım çıxacaq, sənə bağışlayaram avtoqrafımla, könlünə düşsə yazarsan.

Heyif, Əcəl imkan vermədi, şair Ənvər Əhmədi itirdik.

**2.**

Mən şeir sənətini - poeziyanı fikri və zövqü oxşayan - ovsunlayan sehr kimi qavrayıram. Şeir - bəlağətli səslənməsilə hikmətli sükutun möcüzəsini əyaniləşdi-rir. Şair predmetlərdə və hadisələrdə obrazlarını görür, duyur və idrak edir: qışın oğlan çağında qar altında baş qaldıran bənövşəni, bal arısının qonağı olduğu zərif çiçəkləri, ləçəklərində sırğaya dönən jaləni yaddaşında canlandırır, Günəşin şə-fəqlərinə tabı çatmayan buludların göz yaşlarına acıyır. Poeziyanın baş qəhrə-manı İnsandır, insana məxsus xoş əməllərdir. Şeir yazmaq, müşahidələri poetik dilə “çevirmək” cəsarətdir, yaradıcılıq ovqatından, əhval - ruhiyyədən asılıdır, o məqam-larda yaradıcı İnsan sənət meydanında kəşfiyyatçıdır, şeylərin, hadisələrin təsviret-mə duyğusunu yaratmasıdır. Məni bu qənaətə gətirən Eldar Qarqarçayın “Bir kitab şeirləri, hekayələri, esseləri” oldu.

**3.**

Eldar Qarqarçay əsasən mənsur şeirlər yazır, bu janrda o şəxslər qələm işlədir, onda poetik ürəklə intellektuallıq birləşir. Rus ədəbiyyatında böyük yazıçı İvan Turgenev mənsur şeirlər ustası kimi tanınır. Azərbaycanda Xalq yazıçısı Gül-hüseyn Hüseynoğlu maraqlı mənsur şeirlər müəllifidir. Onun “Mücrü”sü əsasında eyni adlı telefilmi də çəkilmişdir. Eldar Qarqarçayın mənsur şeirləri qısa və lako-nikdir, fikir yüklüdür. İnsan fenomeninin psixologiyası: poetik ricət, davranışda in-variantlıq, hissi birləşmə, habelə mövcudluğun yaratdığı ziddiyyətlərinin, qayda - qanunların, göstərişlərin tənzimlənməməsi, ünsiyyətin bir-birindən təcrid olunması - diskretlik və s. leytmotiv müstəvisinə çıxır. “Dünya təzaddan doğulub” mənsur şei-ri maraq doğurur: “Hər zülmətin bir sonu var. Hər qışdan sonra yamyaşıl bir yaz - bahar doğar. Bu dünya təzadla yaşayar, bu dünya təzaddan doğular. Bu dün-yada yaranmışların hamısının oxşarı, bənzəri var...” Bəli, Dünya Təbiətdə sığınır, pərvəriş tapır.

Eldar bəylə söhbətimdə Dünya barədə şəxsi mülahizələri var, “Dünya mey-dandır: kimi yaşamağa gəlir, kimi alverə, amma xoşbəxt insanlar tamaşaya gə-lənlərdir”, - fikrimə astadan cavab verdi ki, Dünyanı hissiyyatla dərk edirik, bu Dünya sərvət ətrafında fırlanır, bu Dünyanın müxtəlif yolları var bizi aparır: “Yol-lar taleyimizlə birgə doğulub. Yol getmişik enişli, yoxuşlu. Yol getmişik, - daşlı, kəsəkli. Bir işimiz,bir məqsədimiz alınmayanda giley etmişik. Bəzən bu yolları qı-namışıq. Yollarımız uğurlu, uğursuz olub, yolları sınamışıq.

Ömrümüz yol üstündədi. Ömrümüz su kimi axır. Yollar yaşamaq, yaşamaq üçün bizi çağırır”. Yazıçının “Yollarda keçən ömür”, “Yollar bizi gözləyir”, “Yol-çu yolda gərək” mənsur şeirləri yaşanan illərin və yaşanacaq günlərin əks - sədası-dır. Bir şeirində oxuyuruq:

**Yollardan başlayır elə ömür də,**
**Ömrümüz bənzəyir gülə ömür də...**
**Qala, bir söz qalam, elə ömürdən,**
**O zaman iz olar geri baxmağa -**
**Bir yol başlamışam üzü sabaha!**

Eldar bəy mənsur şeirlərində İnsanı kainatdan ayırmır və deyir ki, Kainatda iki qüvvə var: səbəb və nəticə. Nəticə iztirabdır, səbəb həyat sevincidir, kainat dəyişməzdir, hərəkətsiz heçnə yoxdur, ziddiyyətlər bir-birini kəsir. Eldar Qarqar-çayın mənsur şeirlərində və hekayələrində Təbiətin predmetləri dərin müşahidədən bəhrələnir, faktlar və hadisələr xalis məntiqi səciyyə daşıyır, oxucuda immpressiv-lik - təəssüratoyadıcılıq yaradır, nəsihətçilikdən uzaqlaşır. O, Təbiəti müşahidə etməklə oxucusunu da daxilən zənginləşdirir. “Xəzər layla çalır”, “Göy üzündə gilənar çiçəklədi” və “Bu bahar” mənsur şeirləri həzin ürəklə yazılmışdır: “Mavi gözlü, şıltaq ləpəli, dalğa-dalğa, təpə-təpə ləpəli Xəzərim mənim. Sənə ünvanlanan sadə, səmimi misralarım, təmtəraqdan uzaq bir hədiyyəmdir bu yazım, bu nəğməm mənim”.

Yaxud: “Yağış yağdı. Göylər hönkür-hönkür ağladı. Sevincdən idi, bəxtdən idi, yoxsa göyün nə olar görəsən dərdi.

Göy üzü çiçək-çiçək gülümsədi, göy üzündə gilənar çiçəklədi”.

Bu sətirlər poeziyadır, sentimentallıq əzəmətidir, heyrətin təntənəsidir!

*(Ardı var)*

Hürriyyət
Sərbəst
SİZİN ÜÇÜN QƏZET
№47 (3338) 17 Dekabr / 2024-cü il
www.hurriyyet.az; / hurriyyet@mail.ru


**Azərbaycan poeziyasını gözəl yaradıcılıq nümunələrilə zənginləşdirən, əsl söz xiridarlarından biri də görkəmli şairimiz Sabir Sarvandır. Onunla dostluq edən şəxslər deyir ki, ağayana oturuşu, duruşu ilə, öz çəkisi, sanbalı olan əsl kişi adam idi. Elə özü kimi sözünün də çəkisi, sanbalı var idi.**







# Bənövşə qoxulu misralar...



Yazdıqları şeirlərin hamısı yadda qaldı, dillər əzbərinə çevirildi. Sabir Sarvan bəlkə də ona görə şeirlərini az yazırdı. Onun üçün kəmiyyət etalon deyildi, kefiyyət etalon idi. Şairin böyüklüyü də ondan ibarətdir ki, o, yazdıqları ilə tarixdə iz qoya bilsin.

Sabir Sarvan yaradıcılığını oxucuya sevdirən, yaxınlaşdıran, doğmalaşdıran onun yazdığı şeirlərində səmimi olmasıdır. Nərgiz Cabbarlı Sabir Sarvan şeirlərini canlı orqanizmə bənzədib. Həqiqətən də elədir. Sabir müəllimin şeirlərini oxuyanda onun yazdıqlarında ürək çırpıntısını, qəlb döyüntüsünü hiss etmək mümkündür. O, kədərini, dərdini sevinci kimi yaşayırdı.

Klassiklərimizdən tutmuş, bugünkü müasir ədəbiyyatımıza kimi kədər, dərd, nisgil bizim ədəbiyyatda öz aktuallığını itirməyən mövzudur.

Sabir Sarvan yaradıcılığını dərindən oxuyub belə bir qənatə gəlmək olar ki, həqiqətən o da böyük şair olmağıyla bərabər, Füzulidən, Nəsimidən, çağdaş ədəbiyyatımızın sevilən şairi Nüsrət Kəsəmənlidən sonra böyük kədər şairidir:

*Keçib ocaqları, köç edib binəm,*
*Sahildə qayadı dərd döyən sinəm.*
*Çarəsi tapılmaz xəstələrdənəm,*
*Dərd verən dərmanın düşünməzmi ola?*

*Və yaxud başqa şeirində deyir:*

*Nə durmuşam əlimdə daş,*
*Nə gözümdə görünür yaş,*
*Qatarımdan yavaş-yavaş*
*Üzülüb gedirəm, Allah!*

Diqqətli oxucularımız sitat gətirdiyim şeir nümunələrindən aydın sezə, görə bilərlər ki, dərd mövzusu Sabir Sarvan yaradıcılığında tamam başqadır. O, şeirlərində kədəri, qəmi özünkülləşdirir. Dərdlə öz "balası", "yaxını" kimi ünsiyyət qurur. Dərdini yanında öz dostu, sirdaşı bilir. Bax, elə ona görə də Sabir Sarvan yaradıcılığı ürəklərdə əks olunub. Onun şəxsiyyəti ilə yaradıcılığı arasında üzvi vəhdət var idi. Bir sözlə, şəxsiyyəti ilə yaradıcılığı bir-birini tamamlayırdı.

Sabir Sarvan təkcə dərd mövzusunda ciddi ədəbi nümunələr yaratmayıb, ümumiyyətlə, o, hər mövzuda ciddi ədəbi nümunələr yaratmağı bacarıb.

Saxta təbəssümlü adamları, yalançı dostları şeirlərində ifşa edib. Haqq aşiqi olub. Haqlının yanında durub. Haqsızı özündən uzaqlaşdırmağı bacarıb. Onunla ünsiyyətdə olan şəxslər deyir ki, Sabir Sarvan həyatda necə tələbkar insan idi isə, şeirlərində də elə idi. Çoxu kimi deyildi. Kimlərisə yalandan təriflməzdi. Kiminsə istedadını görürdüsə onun yanında olurdu. Öz boğazından kəsirdi, həmin istedadlıya pul xərcləyir, kitablarını dərc edirdi. Həmin istedadlı şəxsi alınaçıqlığıyla, üzağlığıyla nüfuzlu şəxslərə təqdim edirdi. Deyirdi ki, bu istedadlı şəxslə ədəbiyyatımız qazanır.

Sabir Sarvan həm də gözəllik vurğunu idi. Təbiəti çox sevirdi. Bənövşə gülünə aid saysız-hesabsız şeirlər həsr edib. O şeirlərdən bir bəndini oxucularımızın nəzərinə çatdırıram:

*Duruşu həyalı, baxışı incə,*
*Bir üzü gül idi, bir üzü qönçə.*
*Yandırıb-yaxacaq məni ölüncə,*
*Mən o bənövşəni niyə dərmədim?!*



Sabir Sarvanın şeir dili, bənzətmələri, şeirindəki təşbehlər də danışan insan kimidir. Şeirdə bənzətmələrin gözəlliyi adama şövq verir. Şair bənövşə gülünü həyalı, abırlı, ismətli bir qıza bənzədir. Rəhmətlik Arif Əmrahoğlu demişkən, Sabir Sarvan ovqat, hiss şairi idi.



Həqiqətən də ovqatımızın yaxşı olan və ya yaxşı olmayan vaxtlarında Sabir Sarvan yaradıcılığına müraciət edə bilərik. Hər misrasında, sətirində özümüzü tapmış oluruq. Elə bil hər şeirində bizim həyatımızı yazıb. Ona görə deyiblər ki, şairlərdə bəsirət gözü açıq olur, şairlər gələcəyi görürlər. Əlbəttə, söhbət Sabir Sarvan kimi əsl şairlərdən gedir ki, onlar özlərindən sonrakı illəri də - yəni tək bu günü, sabahı yox, gələcəyi də qələmə alıblar.

Sabir Sarvan şeirlərinin çox böyük fəlsəfəsi var. Çox istərdim ki, ədəbiyyatşünaslar, tənqidçilər böyük şairimizin şeirlərini təhlil etsinlər. Bütün şairlərin yaradıcılığında olduğu kimi, gənclərin çox sevdiyi sevgi mövzusu da şairin yaradıcılığında qırmızı xəttlə keçir:

## SEVƏRSƏN

*Mən gedirəm...day yanında qalmaram*
*Sən yanında qalanları sevərsən.*
*Deyirsən ki, "ürəyincə deyildim",*
*Ürəyincə olanları sevərsən.*

*Sevgibazlar dəryasında gəmin kəm,*
*Qoy olmasın həmdəmin kəm,*
*dəmin kəm,*
*Doğru sənə acı gəldi? - Qəmin kəm,*
*Dili ballı yalanları sevərsən.*

*Yan-yörəndə gəzən çoxdu, bilirəm,*
*Üzdə guya gözün toxdu...bilirəm,*
*Aşkar işlə aran yoxdu, bilirəm,*
*Gizlinləri, dalanları sevərsən.*

*Su çuxuru, çuxur suyun tapacaq,*
*Armud gördü ayı oyun tapacaq,*
*Müxtəsəri, taylı tayın tapacaq,*
*Filan, filan.. filanları sevərsən.*

Şairin yaratdığı ədəbi nümunələrin hər biri çox gözəl, gələcək nəsillərə ötürülə biləcək şeir, söz nümunələridir.

Sabir Sarvan sözün duru yerindən "şeir balıqları" tuturdu. Həssas insan idi. Ədalətsizliyə dözümü yox idi. Şəxsiyyət kimi bəyənmədiyi insanın da uğurlu misrasına sevinib, təbliğ edən adam idi. Kövrək insan idi. İnsanların həssas yerini duyurdu. Şeirlərində də heç kəsin ağlına gəlməyən məqamlar var. Şeir onun üçün hər şey idi; atasıydı, anasıydı, balasıydı, yarıydı, həmdəmiydi, həmdərdiyidi. Sabir Sarvan dünyaya şair gəldi, dünyadan köçəndə də şairanə, elə Sabiranə köçdü.

Gedişi də qəfil oldu. Lap elə gözləmədiyin vaxt kimi, arzulamadığın məkan kimi. Bu dünyada heç nəyə yaramayan adamlar ölür...Sabir Sarvan bu dünyanın nəbzini tutmağı bacarmasa da, amma hardan ağrıdığını, hardan yandığını duya bilən söz adamıydı.

Həyat yoldaşı Zərnigar xanımın söylədiyinə görə, həkim ondan son istəyini soruşduqda, Sabir Sarvan dərindən ah çəkərək, "Ölüm məni qorxutmur, torpaqdan gəlmişik, torpağa da qovuşacağıq. Amma bir arzum var, kaş ki, Qarabağı azad görüb öləydim", - deyir. Həkim təəccüblə üzünə baxaraq, sən Qarabağlısanmı?- deyə soruşduqda isə, Sabir Sarvanın cavabı qısa və sərt olub: "Mən Azərbaycanlıyam. Bunu istəmək üçün Qarabağlımı olmalıydım"?!

Son söz əvəzi: Yazını bitirib Sabir Sarvanın "Vəsiyyət" şeirini Ağalar Bayramovun ifasında bir də dinləyirəm. Və öz-özümə dodaqaltı pıçıldayıram. İlahi, adam da bu qədər öz ölümünü yaxından duyar və belə doğmalaşa bilər?!

## VƏSİYYƏT

*Məni kəndimizdə basdırarsınız,*
*Bir az yola yaxın, hənirə yaxın.*
*Bitər qəbrim üstə küskün bənövşə,*
*Gələr qulağıma şırşırı arxın.*

*Arxamca kölgəmi asıb-kəsənlər,*
*Təzə qeybətlərdən usanmasınlar.*
*Çalışdım bir ömrü elə yaşayım,*
*Adımı ananlar utanmasınlar.*

*Könüllü çəkmədim zəhrimar dərdi,*
*Neylədim, yapışdı dördəlli məndən.*
*Qurtulmaq istədim əlindən, amma,*
*Hər dəfə tərpəndi dərd əlli məndən.*

*Gözümün nurunu kağıza verdim,*
*Dizimin gözünü daşlar apardı.*
*Bir sıxma dən idi ömrüm elə bil,*
*Töküldü ovcumdan, quşlar apardı.*

*Məni döyüşçütək xatırlasın qoy,*
*Dostlarım adımı tutsalar haçan.*
*Çarpışdım əcəllə ta aramızda,*
*Bir tük qədərincə yer qalanacan.*

*Arxayın tapşırın məni torpağa,*
*Üzü soyuqsa da, daşürək deyil.*
*Məni qoy itirən quşlar ağlasın,*
*Özgə gözdən çıxan yaş gərək deyil.*

*Bu dünya zalıma meydan verəndi,*
*Fağırı gəlib ki, bağrı qan ola.*
*Bir gün gətirəndə kim soruşdu ki,*
*Bir gün aparanda soru?an ola?!*

*Sıxılar doğmalar biri-birinə,*
*Ba?-ba?a söykənən qarğılar kimi.*
*Qanlı misralarım yadigar qalar,*
*Yaradan açılan sarğılar kimi.*

*Məni kəndimizdə basdırarsınız,*
*Dədəmin - babamın qəbrinə yaxın.*
*Bitər qəbrim üstə küskün bənövşə,*
*Gələr qulağıma ?ırşırı arxın.*

**Müəllif: Fuad BİLƏSUVARLI**